www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 8-10 iyul 2023-cü il Şənbə № 115 (8251) Qiymətı 60 qəpik

**Xəbər**

## Qlobal ərzaq bazarında ucuzlaşma davam edir: Azərbaycanda isə...

yazısı səh.3-də

**Gündəm**

### Səfirliyimizə hücum edən edam olunacaq? - İranın növbəti blefi, yoxsa...



Tehranın münasibətləri düzəltməkdə maraqlı olduğuna o halda inanmaq olar ki... - 2 rəy

yazısı səh.3-də

### 120 dövlətin "lokomotivi" - Qoşulmama Hərəkatının Bakı akkordları

yazısı səh.6-da

### Ermənilərin "Laçın davası" nəticəsiz qaldı - İrəvanın daha bir fiaskosu

yazısı səh.9-da

### Antiterror əməliyyatları belə aparılacaq: Ağdərə istiqamətində... - polkovnik açıqladı

yazısı səh.14-də

### Hərbi Doktrinamız Fransaya görə dəyişdirilsə... - mümkün nəticələr

yazısı səh.4-də

### Ermənistanda Azərbaycan dilinə xüsusi "qayğı"nın səbəbi - 4 məktəbdə...

yazısı səh.13-də

### Qərb nəşrindən SOS!: "Rusiya iqtisadiyyatı kollapsa gedir..." - Azərbaycana yan təsirləri

yazısı səh.10-da

### ÜST rəhbəri yenə dünyanı qorxutdu - bu payız...

yazısı səh.12-də

### Prokuror Rəşad Dağlıya iş istədi

yazısı səh.2-də

### Azərbaycanlı müğənnilər də Türkiyə toylarına dəvət alırmı? - ən bahalı sənətçi...

yazısı səh.15-də

### Zelenski Türkiyədə - Ərdoğandan bunu xahiş edəcək

yazısı səh.14-də

# XANKƏNDİNƏ ENMƏK ZAMANI - İRƏVAN BAKINI TƏLƏSDİRİR: ŞOK GƏLİŞMƏ

"X günü" hamıdan yaxşı artıq separatçıların özlərinə bəllidir; revanşistlərin sülh istəyi, yoxsa müharibə sifarişi? Komandolarımız və "Bayraktar"lar isə lap yaxınlıqda...



yazısı səh.8-də

## ABŞ "4-cü bənd"lə bağlı hərəkətə keçir, Putin isə emissarını Bakıya göndərir

Qanunsuz silahlı dəstələrin Qarabağdan çıxarılması Moskvanın vecinə də deyil, Amerika isə...; Qriqoryanın Vaşinqton səfərinin gizlinləri

yazısı səh.5-də



*Qüdrət Həsənquliyev:*

### "Sabah elə proseslər baş verə bilər ki, 2025-ci ili gözləməyə ehtiyac qalmaz"

yazısı səh.7-də



*Əhməd Qaşəmoğlu:*

### "Ölkədə ailə institutu ilə bağlı vəziyyət bərbaddır"

yazısı səh.13-də



Hacı Salayev

### Eks-deputatın hotelində gizli qumar təşkil olunur - sensasiın iddia

yazısı səh.12-də

yazısı səh. 8 və 9-da

yazısı səh.7-də

# Antiterror əməliyyatı başlayır, qorxuya düşən Araik xəbər göndərdi: Bakı ilə dialoqa hazırıq




**Xankəndidə separatçılar çıxılmaz duruma düşdüklərinin fərqindədirlər. Qondarma qurumun "rəhbərləri" bir həftə ərzində saldıqları haray-həşirin heç kim tərəfindən eşidilmədiyini görüncə, geri addım atıblar.**

Baş separatçı Araik Arutyunyan bildirib ki, Bakı ilə dialoqa hazırdırlar.

Amma o, şərt irəli sürüb. Bildirib ki, dialoq ABŞ-ın yox, Rusiyanın vasitəçiliyi ilə olmalıdır.

Araik bu şərti irəli sürməklə, əslində saman çöpündən yapışıb. Onun bu şərti irəli sürməkdə məqsədi nədir? ABŞ "Qarabağ ermənilərı Azərbaycanın tərkibində təhlükəsiz yaşaya bilərlər" deməklə, bölgədə separatizmə yer olmadığını açıq şəkildə bəyan edib.

Təbii ki, Araik belə məqamda ABŞ-dan mədəd ummağın mənasız olduğunu anlayır. Ona görə də rusların vasitəçiliyini təklif edir.

Azərbaycanın isə mövqeyi bəllidir: heç bir vasitəçi olmadan öz vətəndaşları ilə təmas qurur və ermənilərin reinteqrasiyasını həyata keçirir.

Araikin bu açıqlaması onu göstərir ki, Azərbaycanın antiterror əməliyyatına başlayacağını bilirlər. Beynəlxalq ictimaiyyət də bu məsələdə haqlı olan Azərbaycanın yanında olacaq. Separatçılar halqanın tam daraldığının fərqindədirlər. Bu, onların son çırpıntısıdır, ya Bakının şərtini qəbul edəcəklər, ya da antirerror əməliyyatı ilə məhv ediləcəklər.
Publika.az




## Hava proqnozu Ermənistanı belə qorxuya saldı

**"Bakı televiziyasının efirində gedən hava proqnozunda Ermənistan Respublikası, o cümlədən paytaxt İrəvan Azərbaycan kimi təqdim olunur".**

Musavat.com bildirir ki, bu barədə Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ani Badalyan özünün Twitter səhifəsində paylaşım edib.

Göründüyü kimi, Ermənistan artıq Azərbaycan efirində gedən bir hava proqnozundan vəlvələyə düşüb. 30 il qaçqın həyatı yaşayanların, evindən didərgin düşənlərin ağrı-acısını anlamaqda çətinlik çəkən bu insani duyğulardan xəbərsiz toplum indi bunu düşmənçilik olaraq sırımağa çalışır. Biz 30 il sonra da olsa, vətənimizə qayıtdıq. Sizin isə dönəcək bir vətəniniz belə yoxdur, yalnız itirəcəkləriniz var.

Xatırladaq ki, Ermənistanın Ekologiya Nazirliyi illərdir ki, Azərbaycan ərazisi olan Qarabağdakı hava durumu barədə gündəlik məlumatlar dərc edir. Bu məlumatlarda yeganə dəyişiklik odur ki, son vaxtlar "artsax" sözünü "Dağlıq Qarabağ"la əvəz ediblər.

İrəvan isə Azərbaycanın klassik torpağı, vətənimizin bir parçasıdır. Biz hələlik İrəvanımızın hava durumu barədə məlumatlar yayırıq. Gün gələcək, bu gözəl Vətən torpağı düşmənlərdən təmizlənəcək və biz İrəvandan reportajlar yayacağıq.



## Əli İnsanovun partiyası dağılır: HƏP-dən istefalar başladı

**Musavat.com xəbər verir ki, sabiq səhiyyə naziri, HƏP-in sədri Əli İnsanovun təşkilatında təlatümlər başlayıb. Belə ki, təşkilatın idarə heyətinin üzvü Murad Bayramoğlu özünün Facebook səhifəsində partiyadan getdiyini və özü ilə bərabər HƏP-in Culfa, Abşeron təşkilatlarından yüzlərlə üzvün çıxmasını bəyan edib.**

Onun istefa bəyanatı milli azadlıq hərəkatının lideri Elçibəyin portretinin fonunda özünün fotosu ilə müşayiət olunub. Sitat: "Dəyərli dostlar, uzun zamandır mənim üçün çətin olan bir seçim qarşısında qalmışdım. Nəhayət ki, secimimi edərək yaranmasının ilk günündən canla-başla əmək verdiyim HƏP-in İdarə Heyətinin üzvlüyündən, HƏP Abşeron rayon təşkilatının sədrliyindən, o cümlədən HƏP-in üzvlüyündən ayrılıram. Səbəb siyasi baxışlarımızın fərqliliyidir".

Daha sonra Murad Bayramoğlu tərəfdarlarının da bu partiyanı tərk etdiyini yazır. Sitat: "HƏP Abşeron təşkilatının bütün üzvləri (452 nəfər) 06.07.2023 -cü il tarixdə, Culfa rayon təşkilatının 120 üzvü - (toplam 572 üzv) imzalarını geri götürməklə, partiyadan istefa verib. Hər birinə mənə dəyər verdikləri üçün minnətdaram, uğurlar arzulayıram".

Musavat.com bildirir ki, Haqq Ədalət Partiyası M.Bayramoğlunun istefasını təsdiqləyib. Partiyanın yaydığı kiçik məlumatda bildirilir: "2023-cü il iyulun 6-da Haqq Ədalət Partiyasının İdarə Heyəti Bayramoğlu Muradı öz razılığı ilə partiya sıralarından xaric etmişdir".

Musavat.com bu məqamda yada salır ki, son vaxtlar Azərbaycanda 31 partiya özünü buraxdığını elan edib. Yerdə qalan partiyalar isə 5 min həcmdə üzv saylarını, onların telefon nömrə və başqa göstəricilərini 11 iyula qədər Ədliyyə Nazirliyinə təqdim etməlidirlər. Əks halda, onların da fəaliyyəti qanunsuz sayılacaq. HƏP-dəki bu istefalar İnsanovun təşkilatının qeydiyyatına problem yarada bilər.

## Ebru Gündeşə Azərbaycanda cinayət işi açıla bilər?



**Türkiyəli müğənni Ebru Gündeş barəsində cinayət işi açıla bilər.**

Musavat.com xəbər verir ki, bunu Qaynarinfo-ya açıqlamasında vəkil Əkrəm Həsənov müğənni Ebru Gündeşin Azərbaycanda dəvət aldığı toydan 250 min dollar qazanc götürməsinin hüququ tərəflərini izah edərkən deyib.

Vəkil bildirib ki, buna səbəb onun vergi ödənişindən yayınmasıdır:

"Vergi borcunu ödəməməsinə görə vergi orqanları ona faiz və cərimələr hesablaya bilər. Vergi borcundan əlavə faiz və cərimələri də ödəməli olacaq. Məhkəmə zamanı aşkar olunacaq ki, Ebru Gündeşin vergini ödəməməsində imkansızlıq deyil, məhz qərəz var. Müğənni bundan sonra deyə bilməz ki, pulum yoxdur".

Vəkil bütün şəxslərin vergilərini ödəməli olduğunu vurğulayıb.

Qeyd edək ki, şəmkirli biznesmen oğlunun kiçik toy məclisinə türkiyəli müğənni Ebru Gündeşi gətirib. İddiaya görə, iş adamı müğənniyə 250 min manat qonorar ödəyib.

## Prokuror Rəşad Dağlıya iş istədi



**Prokuror tanışını qətlə yetirməkdə təqsirləndirilən meyxanaçı Rəşad Əmirovun (Rəşad Dağlı) 11 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.**

"Report" xəbər verir ki, bu barədə dövlət ittihamçısı Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Leyla Məmmədovanın sədrliyi ilə keçirilən prosesdə elan olunub.

Xatırladaq ki, qətl hadisəsi ötən il noyabrın 9-u saat 05 radələrində Qaradağ rayonu ərazisində qeydə alınıb. Belə ki, 1979-cu il təvəllüdlü İskəndər Mehdiyev çoxsaylı bıçaq xəsarətləri ilə qətlə yetirilib. Hadisə ilə bağlı İ.Mehdiyevin tanışı, 1984-cü il təvəllüdlü R.Əmirov istintaqa cəlb edilib.

Qaradağ Rayon Məhkəməsinin qərarı ilə onun barəsində həbs-qətimkan tədbiri seçilib. Hadisənin şəxsi münasibətlər zəminində baş verdiyi bildirilir.

Onun barəsində Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) və 228.4-cü (qanunsuz olaraq qaz silahını, soyuq silahı, o cümlədən soyuq atıcı silahı əldə etmə, satma və ya gəzdirmə) maddələri ilə ittiham irəli sürülüb.

## Azərbaycanda qadınların pensiya yaşı artdı: niyə hədd 63-də saxlanılmır?

**İyulun 1-dən etibarən Azərbaycanda qadınların pensiya yaşı artırılıb. İndiyədək qadınlar 63 yaşından pensiyaya çıxa bilirdilərsə, 2023-cü ilin iyulun 1-dən etibarən bu yaş həddi 63,5 yaşa qaldırılıb. Qeyd edək ki, bu artım hər altı aydan bir olur.**

Yaş həddinin artırılması 2017-ci ildə "Əmək pensiyaları haqqında" Qanuna edilən dəyişikliklər əsasında baş verir. Belə ki, kişilərin yaş həddinin hər il altı ay artırılması 2017-ci il iyulun 1-dən başlayaraq 2021-ci il iyulun 1-dək davam etdi. Amma qadınların yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2027-ci il iyulun 1-dək hər il altı ay artırılacaq. 2027-ci ildə kişi və qadınlar üçün yaş həddi eyni - 65 yaş olacaq.

Bəs ölkədə nə qədər qadın pensiya alır? Qadınlar üçün pensiya yaşı 63-də saxlanıla bilərmi? Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Sosial Müdafiə Fondunun (DSMF) İctimaiyyətlə Əlaqələr Departamentinin müdiri Rəşad Mehdili Oxu.Az-ın sorğusuna cavab olaraq bildirib ki, hazırda Azərbaycanda pensiya alan vətəndaşların sayı 1 101 949 nəfər müəyyən edilib: "Onlardan 637 975-ni isə pensiya alan qadınlar təşkil edir".

Yaşa görə əmək pensiyası buna hüququ olan şəxsin müraciəti əsasında ömürlük təyin edilir. "Əmək pensiyaları haqqında" Qanunun 7-ci maddəsinə əsasən, pensiya yaşına çatmış şəxsin fərdi hesabının sığorta hissəsində qeydə alınmış pensiya kapitalı əmək pensiyasının minimum məbləğindən az olmayan pensiya təminatına imkan verdikdə sığorta stajından asılı olmayaraq, bu, pensiya təminatına imkan vermədikdə isə azı 25 il sığorta stajı olduqda (2017-ci il iyulun 1-dək yaşa görə əmək pensiyası təyin edilmiş şəxslər istisna olmaqla) yaşa görə əmək pensiyası hüququ var.

**Deputat Vüqar Bayramlı açıqlamasında bildirib ki, qadınların 63 yaşda pensiyaya çıxması barədə təklif verilib:** "Mən bununla bağlı dəfələrlə Milli Məclisdə təkliflərlə çıxış etmişəm. Eyni zamanda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət etdim ki, qadınların pensiya yaşının 63-də saxlanmasının maliyyə tutumunun hesablanması həyata keçirilsin. Çünki qadınların pensiya yaşının 63-də olması daha məqsədəuyğundur".

**Deputat qeyd edib ki, qadınlarla kişilərin pensiya yaşına diferensial yanaşma daha düzgündür:** "Bu, bir sıra ölkələrdə də tətbiq olunur. Qadınların pensiya yaşı tamam olan zaman daha çox sosial təminata ehtiyacları var. Təklifimiz ondan ibarətdir ki, bu nəzərə alınsın".

YENİ MÜSAVAT
N 115 (8251) 8 iyul 2023



# Tehrandakı səfirliyimizə hücum edən edam olunacaq? - İranın növbəti blefi, yoxsa...

**Fuad Çıraqov:** "Tehranın münasibətləri düzəltməkdə maraqlı olduğuna o halda inanmaq olar ki..."

**Elçin Mirzəbəyli:** "Terror aktının motivinin ortaya çıxarılması da önəmlidir"

**Xəbər verildiyi kimi, iyulun 5-də Azərbaycan Prezidenti İlham Əliyev İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahianı qəbul edib. Görüş zamanı yanvarın 26-da Azərbaycanın Tehrandakı səfirliyinə qarşı törədilmiş terror aktı ilə bağlı aparılan araşdırmanın gedişatı da müzakirə edilib.**

Azərbaycan səfirliyinə qarşı törədilmiş terror aktının İranın məhkəmə və hüquq-mühafizə orqanları tərəfindən çox ciddi şəkildə araşdırıldığını bildirən iranlı nazir isə səfirliyin fəaliyyətinin tezliklə bərpa olunacağına ümid ifadə edib. Prezident İlham Əliyev öz növbəsində Azərbaycanın İrandakı diplomatik nümayəndəliyinə qarşı törədilən terror aktında müqəssir olan şəxslərin layiqli cəzasını alacaqlarına ümidvar olduğunu söyləyib.

**Jurnalistlərə açıqlamasında isə Abdullahian deyib ki, Azərbaycan səfirliyində hadisə törədən şəxsin istintaqı yekunlaşıb və bu cinayəti törədən şəxsə ən ağır və şiddətli cəzalar veriləcək.** "Diplomatik korpusun təhlükəsizliyi ilə əlaqədar hər hansı şəxsin və ya qurumun da iştirakı isbat olunarsa, onlar da öz cəzalarını alacaqlar", - nazir vurğulayıb.

Xatırladaq ki, bundan bir gün qabaq İranın Məhkəmə və Ədliyyə sisteminin sözçüsü Məsud Sitayişi mətbuat konfransında Azərbaycanın Tehrandakı səfirliyinə hücumla bağlı istintaqın yekunlaşdığını və bu işdə eyni şəxsin (Yasin Hüseynzadə - red.) təqsirləndirildiyini bildirmişdi. Azərbaycan Baş Prokurorluğunun mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov isə Musavat.com-a bildirib ki, istintaqın yekunu ilə bağlı İrandan Baş Prokurorluğa hər hansı məlumat daxil olmayıb.

Əslində Abdullahianın sözlərini heç olmasa, o halda səmimi saymaq olardı ki, İran qondarma ittihamlarla 4 aydır girov saxladığı gənc Azərbaycan vətəndaşı Fərid Səfərlini nazirin səfəri ərəfəsi qeyd-şərtsiz azad edəydi. Əksinə, ona hökm oxunması gözlənilir. Eləcə də ötən ilin dekabrında İranda uydurma ittihamlarla saxlanmış və fiziki, psixoloji təzyiqlərə məruz qalmış digər Azərbaycan vətəndaşı - Validə Yusifova.



**Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin eksperti Fuad Çıraqov "Yeni Müsavat"a bildirdi ki, səfirliyimizə hücum edən şəxs edam edilməlidir. Politoloq hesab edir ki, əgər İran xarici işlər naziri "ən ağır cəza"dan bəhs edirsə, bu ölkənin cinayət qanunvericiliyində ağır cəza kimi edam nəzərdə tutulur:** "Onun müddətli həbsə məhkum edilməsi bizi qane edə bilməz. Nə bilək həmin şəxs yenidən dəlixanaya salınıb sonra azad edilməyəcək? Bundan başqa, həmin şəxs edam edilərsə, kifayət olmamalıdır. Rəsmi Bakı İranda Azərbaycanda konstitusion quruluşun dəyişdirilməsinə çalışan terrorçu qrupun vətəndaşlarımız olan şəxslərinin təhvil verilməsi tələbini irəli sürmüşdü. Həmin şəxslərin hamısı Azərbaycana təhvil verilərsə, bəlkə indiki İran hakimiyyətinin münasibətləri düzəltməkdə maraqlı olduğuna inanmaq olar".

**Siyasi şərhçi Elçin Mirzəbəylinin fikrincə, Azərbaycan səfirliyində terror aksiyası həyata keçirən, bir nəfərin ölümünə, digərinin isə ağır yaralanmasına səbəb olan şəxs ən ağır cinayət törətdiyi üçün çox güman ki, ən ağır cəzaya məhkum olunacaq**: "Bir ölkənin xarici işlər nazirinin məhkəmənin hökmü olmadan veriləcək cəza haqqında danışması əslində bu ölkədə hüquqla bağlı gerçək durumun nə qədər acınacaqlı vəziyyətdə olduğunu nümayiş etdirir. Şübhəsiz ki, Azərbaycan səfirliyində terror aksiyası həyata keçirən şəxs xüsusilə ağır cinayət törədib və cəza da onun törətdiyi əmələ adekvat olmalıdır. Amma burada təkcə veriləcək cəza deyil, terror aksiyasının gerçək motivinin ortaya çıxarılması da önəmlidir. Əgər İranın istintaq və məhkəmə orqanları törədilən terror aksiyasının motivini məişət zəminində baş verən hansısa qondarma ittiham üzərində quraqcaqlarsa, şübhəsiz ki, bu bizi qane etməyəcək. Çünki baş verən terror aktı ilə bağlı hətta xüsusi hüquqi bilgilərə, analitik təfəkkürə malik, kriminalistikaya bələd olmayan insanların belə verə biləcəyi suallar var və bu sualların cavabı hələ ki açıq qalıb. Səfirliyin yanındakı mühafizə köşkündəki polisin terrorçu ilə ünsiyyətdə olması və baş verənlərə seyrçi qalması, terrorçunun uzun müddət səfirliyin qapısını açmağa cəhd göstərməsi və bu müddət ərzində təhlükəsizlik qüvvələrinin, polisin hərəkətə keçməməsi cinayətin təşkil olunduğuna çoxsaylı şübhə yaradır. Bu halda terror aksiyasının sifarişçiləri və təşkilatçıları, mühafizə polisi də daxil olmaqla, bütün iştirakçıları ədalət məhkəməsi qarşısına çıxarılmalı və layiqli cəzalarını almalıdırlar.

Bu baxımdan, şəxsən mənim üçün məhkəmənin verəcəyi cəzadan daha çox ittiham aktı və məhkəmənin hökmü daha çox əhəmiyyət kəsb edir. Əgər məhkəmə, sadəcə, terror aktını həyata keçirən şəxsi "məişət zəminində törədilən" cinayətdə ittiham edərək, onu edam cəzasına məhkum edəcəksə, bu, terror aksiyasının əsl motivlərinin və iştirakçılarının gizlədilməsinə xidmət edən qərar olacaq və düşünürəm ki, belə bir yanaşma cəmiyyətimiz tərəfindən qəbul edilməyəcək".

**Azərbaycan vətəndaşı Fərid Səfərlinin anası Dilarə Əsgərova isə "Yeni Müsavat"a bildirdi ki, oğlu ilə cəmi iki dəfə danışmaq imkanı olub:** "Konsulluqdan verilən məlumata görə, vəziyyəti yaxşıdır. Hökmün verilməyini gözləyirik. Xarici İşlər Nazirliyindən əlaqə saxladılar və dedilər ki, hələ ki vəkil təyin olunmayıb".

❑ **Nigar HƏSƏNLİ, "Yeni Müsavat"**

## İranlı deputat millət vəkillərimizi "həyasız" adlandırdı



**Təbriz, Üskü və Tufarqan şəhərlərinin İran parlamentindəki nümayəndəsi Ruhullah Mütəfəkkir Azad Milli Məclisin üzvü Razi Nurullayev və Naqif Həmzəyevi terrorizmi dəstəkləməkdə ittiham edib.**

O, bu barədə özünün Tvitter hesabında yazıb (Axar.az).

"Bakı parlamenti"nin (iranlı Azərbaycan Respublikasını aşağılamaq üçün bu ifadədən istifadə edib - red.) iki deputatının münafiqlərin (oxu: Xalq Mücahidləri Təşkilatı - red.), terror qruplaşmasının iclasında həyasızcasına iştirakı terrora açıq dəstəkdir. Avropa və amerikalıların münafiqlərə dəstək verməkdən çəkindiyi bir vaxtda bu millət vəkillərinin belə bir axmaqlığı sionistlərlə münasibətlərin nəticəsidir",- iranlı nümayəndə bildirib.

Qeyd edək ki, hakimiyyətin mühafizəkar qanadına mənsub olan Ruhullah Mütəfəkkir Azad bundan əvvəl də müxtəlif məsələlərlə bağlı Azərbaycan Respublikasına qarşı çıxışlar edib.

Xatırladaq ki, İran Xalq Mücahidlərinin iyulun 1-də Parisdə baş tutan toplantısında dünyanın bir sıra siyasətçiləri ilə yanaşı, Milli Məclisin üzvləri də iştirak edib. İran mediası, xüsusilə SEPAH-a yaxın mətbuat orqanları və "Səhər" televiziyası da azərbaycanlı millət vəkillərinin İran Milli Müqavimət Şurasının təşəbbüsü ilə Parisdə keçirilən "Azad İran - 2023" beynəlxalq konfransında iştiraklarını geniş müzakirəyə çıxarıblar.

## Qlobal ərzaq bazarında ucuzlaşma davam edir: Azərbaycanda isə...



**İyun ayında qlobal ərzaq qiymətləri indeksi yenə azalıb.**

Musavat.com BMT Kənd Təsərrüfatı və Ərzaq Təşkilatının(FAO) hesabatına istinadən xəbər verir ki, qlobal ərzaq qiymətləri indeksi ötən ay 122.3 bənd təşkil edib ki, bu da may ayı ilə müqayisədə 1,4 faiz, 2022-ci ilin martındakı rekord göstəricidən isə 23,4 faiz aşağıdır.

İyun ayında qlobal taxıl qiymət indeksi mayla müqayisədə 2,1 faiz, illik ifadədə isə 23,9 faiz azalıb. Azalma bütün taxıl məhsullarında, ən çox isə yemlik taxılda 3,4 faiz olmaqla qeydə alınıb.

Bitki yağları indeksi mayla müqayisədə 2,4 faiz düşərək 2020-ci ilin noyabrından bəri ən aşağı həddə qərarlaşıb: "Bu indeksin azalmasının davam etməsi əsasən dünyada palma və günəbaxan yağlarının kəskin ucuzlaşması ilə bağlıdır. Bu ucuzlaşma soya və raps yağlarındakı cüzi bahalaşmanı tam kompensasiya edib".

FAO-nun süd məhsulları indeksi iyunda aylıq ifadədə 0,8 faiz, illik ifadədə isə 22,2 faiz azalıb. Buna səbəb Qərbi Avropanın bazar böyük həcmdə pendir çıxarmaqla bu məhsulun ucuzlaşmasını şərtləndirməsidir.

Ət qiymətləri indeksi isə iyunda dəyişməz qalıb, illik ifadədə azalma 6,4 faiz təşkil edib. Belə ki, ay ərzində quş və donuz ətinin bahalaşmasını mal və qoyun ətinin ucuzlaşması kompensasiya edib. Quş ətini bahalaşdıran əsas amil Şərqi Asiyada tələbatın kəskin artımıdır. Donuz əti isə taun xəstəliyinə görə ixracın azalması üzündən bahalaşıb.

Dünya şəkər qiyməti indeksi iyunda mayla müqayisədə 3,2 faiz azalıb. Bu, dördaylıq artımdan sonra ilk azalmadır. Azalmaya rəğmən,qlobal şəkər qiyməti indeksi illik ifadədə 29,7 faiz bahadır.

## Rusiya Azərbaycandan da sərmayə axını gözləyir - Qərbin reaksiyası nə olacaq?

**İqtisadçı ekspert:** "Rusiyanın yeganə ümidi İslam dünyası və MDB ölkələrinədir..."



**Qərbin ağır sanksiyaları və Rusiya neft-qazından imtinanın təsiri altında iqtisadiyyatı getdikcə daha qəliz problemlərlə üzləşən şimal qonşumuz heç olmasa, sanksiyalara qoşulmayan ölkələr, xüsusən də müsəlman dünyası dövlətləri ilə əlaqələri dərinləşdirmək hesabına vəziyyətdən xilas olmağa çalışır. Hərçənd sanksiyalar kifayət qədər uzun müddətə nəzərdə tutulub.**

Buna görə də Rusiya uzunmüddətli kontrstrategiya qurmaq, uğurlu iqtisadi layihələr hazırlamaq məcburiyyətindədir. "İslam bankçılığı" haqqında qanun layihəsi də bu qəbildəndir.

"İslam bankçılığı haqqında qanunun tətbiqi İslam ölkələri ilə birgə layihələrlə Rusiyaya 11 milyard dollardan 14 milyard dollara qədər vəsait cəlb etməyə imkan verəcək".

Bu barədə TASS-a **Dövlət Dumasının maliyyə bazarı komitəsinin rəhbəri Anatoli Aksakov** bildirib.

"Layihələrin həyata keçirilməsi üçün vəsait cəlb etmək potensialı, bir çox ekspertlərin hesabladığı kimi, 11-14 milyard dollar təşkil edir. Eyni zamanda biz Türkiyədən, İrandan, İslam dininə sitayiş edən Asiya ölkələrindən müxtəlif layihələrə investisiya axınına, investisiyalara ümid edirik", - deyə o qeyd edib.

Komitə sədrinin sözlərinə görə, yeni qanun iyulda qəbul olunarsa, avqustun əvvəlində artıq onun tətbiqinə başlana bilər. Eyni zamanda o əlavə edib ki, qanunvericilər arasında layihənin məzmunu ilə bağlı fikir ayrılığı yoxdur.

Qeyd edək ki, islam bankçılığı İslamın dini prinsipləri ilə uzlaşmaqla bank işinin aparılması üsuludur. İslam bankçılığı xüsusilə kreditlər üzrə faizlərə, spekulyasiyaya, qumar oyunlarına qadağa qoyulmasını nəzərdə tutur. Habelə tütün və spirt istehsalına, fahişəliyə, pornoqrafiyaya və bəzi ət növlərinin emalına investisiya qoyuluşunu yasaqlayır.

**İqtisadçı Eyyub Kərimli "Yeni Müsavat"a bildirdi ki, Rusiya-Azərbaycan arasında investisiya mübadiləsinin müsbət dinamikası davam edir:** "Rusiyadan Azərbaycana 5 milyard dollardan çox investisiya qoyulub. Azərbaycandan isə Rusiyaya 2 milyard dollar investisiya yatırılıb. Sözsüz ki, Rusiyanın Qərblə üz-üzə durması, 8 sanksiya paketi ilə üzləşməsi Rusiya iqtisadiyyatına mənfi təsir göstərir. Eyni zamanda Qərb şirkətlərinin Rusiyadan getməsi ölkə iqtisadiyyatını çökdürmək üzrədir. Göründüyü kimi, rublun dəyəri günü-gündən düşür. Belə olan halda Rusiyanın yeganə ümidi İslam, eyni zamanda MDB ölkələridir.

Rusiya bu investisiyalara möhtacdır. Azərbaycan bundan sonra da Rusiyaya müəyyən həcmdə investisiya qoya bilər, lakin hesab etmirəm ki, bu böyük məbləğ olacaq. Azərbaycanın investisiya qoya biləcəyi sahələr Rusiyada çox da inkişaf etməyib. Göründüyü kimi, ölkəmiz Avropa ölkələrində daha çox neft-qaz infrastrukturunun inkişafına sərmayə qoyur. Bu baxımdan Rusiya bizim üçün cəlbedici bazar deyil".

**Ekspertin sözlərinə görə, İslam ölkələrinin sərmayəsi Azərbaycan üçün faydalı olacaq:** "Rusiya bizim əsas ticarət tərəfdaşlarımızdan biridir. Şimal qonşunun Azərbaycanla normal münasibətlərinin olmasına daha çox ehtiyacı var, çünki Azərbaycan Türk-İslam dünyasında böyük nüfuza malik ölkədir. Bu baxımdan, Rusiya iqtisadi əlaqələrin möhkəm olmasında maraqlıdır. Rusiya iqtisadiyyatının dirçəlməsi Azərbaycana da müsbət təsir edəcək".



## Hərbi Doktrinamız Fransaya görə dəyişdirilsə... - mümkün nəticələr

**İlham İsmayıl:** "Təhlükəsizlik Konsepsiyasına da dəyişikliklər edilməlidir..."

**Azərbaycanın 2010-cu ildə qəbul edilmiş Hərbi Doktrinası dəyişə bilər. Bu barədə parlamentin son iclasında danışan deputat Elşad Mirbəşir öncə xatırladıb ki, doktrinanın 75-ci maddəsi özündə dəyişən təhlükəsizlik mühitinə uyğun olaraq, müvafiq dəyişikliklər, dəqiqləşdirmələr və əlavələr etməyi ehtiva edir.**

"Bu gün artıq yeni reallıqlar şəraitində yaşayırıq. Azərbaycan Respublikasının təhlükəsizlik mühiti əhəmiyyətli dərəcədə dəyişib. Azərbaycan öz torpaqlarını işğaldan azad edərək, regionda yeni geosiyasi reallıqlar və təhlükəsizlik mühiti formalaşdırılıb. Müvafiq olaraq, Azərbaycan Respublikasının Hərbi Doktrinasında da dəyişikliklər etmək lazımdır. Azərbaycan Respublikası həm də Cənubi Qafqaz regionunda təhlükəsizlik sisteminin yaradılması missiyasını da öz üzərinə götürüb. Hərbi Doktrinada bu məqamın da ifadə olunması yaxşı olardı. Azərbaycan Respublikasının təhlükəsizliyinə olan təhdidlərin də xarakteri dəyişib", - deyə o qeyd edib.

**Onun sözlərinə görə, sənəddə yeni reallıqlara uyğun dəqiqləşdirmələrin və dəyişikliklərin edilməsi zəruridir:** "Xüsusilə də doktrinanın 14, 15, 16, 21 və sair maddələrində dəqiqləşmənin aparılması lazımdır".

**Deputat ardınca vurğulayıb ki, Azərbaycan ərazisində separatizmə açıq dəstək verən Fransa ilə bağlı müvafiq məqamlar da öz ifadəsini tapmalıdır:** "Azərbaycan Prezidenti cənab İlham Əliyev də Fransanın davranışları ilə bağlı münasibətini açıq bildirdi. Bütün bunlar bir daha Azərbaycan Respublikasının hərbi doktrinasında müvafiq dəyişikliklərin edilməsinin zəruriliyini göstərir".

Sənədə yeganə olaraq məhz qatı ermənipərəst Fransanın adının neqativ planda salınması mümkünmü və o halda bu, nə demək olacaq? Hansı siyasi nəticələr doğura bilər? Yəqin ki, ən azından Fransa bir daha "yuyulmamış qaşıq" kimi hər hansı şəkildə sülh prosesinə qatıla bilməyəcək.

**Təhlükəsizlik eksperti İlham İsmayıl "Yeni Müsavat"a bildirdi ki, istər Təhlükəsizlik Konsepsiyası, istər Hərbi Doktrina yeri gələndə hadisələrin inkişafından asılı olaraq, geopolitik vəziyyətdən, dövlətlərarası münasibətlərdən asılı olaraq redaktə olunmağa, dəyişilməyə, əlavələr edilməyə açıq sənədlərdir:** "Bunların baş verməsini normal qarşılamaq lazımdır. Hesab edirəm ki, Hərbi Doktrina ilə yanaşı, 2007-ci ildə qəbul edilmiş Təhlükəsizlik Konsepsiyasında da dəyişikliklər edilməlidir. Orada məsələlər daha aydın yazılmalıdır. Bu sənədlər qəbul olunduqdan indiyə qədər çox proseslər gedib, yeni reallıqlar yaranıb. Düzdür, orada bizim Şimali Atlantika Blokuna reinteqrasiyamız qeyd olunub. İndi daha konkretləşməlidir. Təhlükə məsələsi də dəqiqləşdirilməlidir.

O ki qaldı Hərbi Doktrinada Fransanın adının xüsusi olaraq mənfi planda qeyd olunması məsələsinə, məncə bu, zərərli ola bilər. Çünki Fransanın dövlət olaraq siyasətində bizə qarşı siyasət yox, məhz Makron siyasəti bizə qarşıdır. Makron siyasəti isə hələ tam Fransa dövlətinin siyasəti demək deyil. Makron üç il yarımdan sonra prezidentliyə "əlvida" deyəcək. Fransanın ondan əvvəlki dövlət başçıları Azərbaycanla normal münasibətlərdə olublar. Makrona və Makron siyasətini maliyyələşdirən erməni lobbisinə görə Fransa dövlətini Hərbi Doktrinamızda düşmən kimi göstərmək zərərli olar".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

## Bir Polşa qalmışdı... polyak prezidentdən Bakı ilə bağlı tapmaca kimi mövqe

Duda hesab edir ki, Cənubi Qafqazın hansı ölkəsinin həqiqətən sülh istədiyini çox yaxşı bilir, amma konkret ad çəkmir; məgər regionda sülh istəyən dövlət bəlli deyil?

**"Rəsmi Varşava Cənubi Qafqazın hansı ölkəsinin həqiqətən sülh istədiyini çox yaxşı bilir".**



"Yeni Müsavat" xəbər verir ki, bunu Polşa Prezidenti Anjey Duda Ermənistan parlamentinin sədri Alen Simonyanla görüşdə deyib.

Polyak prezident qeyd edib ki, ölkəsi 44 günlük müharibədən sonra bölgədəki vəziyyəti izləyir. Simonyan isə xatırladıb ki, Ermənistan Avropa Sülh Fondu (APF) vasitəsilə texniki yardım xahişi ilə Avropa İttifaqına (Aİ) müraciət edib. O, həmçinin Aİ-nin Ermənistanda monitorinq missiyasının yerləşdirilməsinin vacibliyini qeyd edib, "Dağlıq Qarabağdakı böhran", "Azərbaycanın təcavüzü nəticəsində Ermənistanın suverenliyinə təhdidlərlə bağlı təfərrüatları" açıqlayıb.

Simonyan ardınca tipik erməni həyasızlığı ilə bildirib ki, "Ermənistan beynəlxalq tərəfdaşlardan Azərbaycana qarşı sanksiyaların tətbiqinə qədər bu cür qanunsuz və qeyri-insani hərəkətləri pisləmələrini" gözləyir.

Öz növbəsində Duda qonağını Ermənistan və Polşa arasında əlaqələrin inkişafında maraqlı olduğuna əmin edib.

Qeyd edək ki, Polşa Azərbaycanın da daxil olduğu Avropa Birliyinin "Şərq Tərəfdaşlığı" Proqramının əsas təşəbbüskarlarından biridir. Azərbaycanla normal münasibətlərə malikdir. Duda Bakıda rəsmi səfərdə olub (2019). Eləcə də Prezident İlham Əliyev Polşanı rəsmi ziyarət edib. O zaman cənab Duda niyə konkret ölkə adı çəkməyib? Onun tapmacavari mövqeyinin səbəbi nədir, nəyə işarə vurur?

Yada salaq ki, Aİ-nin Ermənistandakı (Azərbaycanla şərti sərhəddə) uzun müddətli missiyasının tərkibində Polşa da təmsil olunub.

Simonyan isə erməni rəsmilərinin köhnə "plastinkası"nı işə salıb. Yenə təhlükəsizliyə təhdid, "blokada", "humanitar böhran", "etnik təmizləmə" ifadələrini işlədib. Yəni hansı ölkəyə getsələr, hansı platformada çıxış etsələr, Qarabağda guya böhran yarandığı barədə danışırlar. Bu dəfə də NATO ölkəsi Polşanı seçiblər.

**Siyasi şərhçi Xəyal Bəşirovun sözlərinə görə, Cənubi Qafqazın iki ölkəsi arasında münaqişə var:** "Polşa lideri də onlardan birini nəzərdə tutur, amma avropalı siyasətçi spekulyasiya edir. Prezident rəsmi mövqe bildirəndə dəqiqləşdirməlidir. Məncə, Azərbaycanı nəzərdə tutur. Sadəcə, erməni lobbisindən çəkindiyi üçün ad demir. Əslində Duda anlayır ki, işğalçı kimdir, sülh istəyən kim".

**Ekspertin fikrincə, Azərbaycanın sülh tərəfdarı olduğunu bilən ölkələr çoxdur, Polşa da həmin qəbildən olan ölkələrdəndir:** "Avropalı liderlər görürlər ki, Azərbaycan Avropa İttifaqının enerji təminatında hansı rolu oynamaqdadır. Ona görə Polşa prezidenti də yeganə sülhün təminatçısı kimi Azərbaycanı görür, sadəcə, diplomatik manevr edərək ad çəkmir.

Simonyan istərdi ki, ölkəsinin adını açıqlasın. Hər halda, diplomatik baxımdan etik deyil. Avropalı siyasətçilər açıq mövqe bildirməlidirlər. Görünür ki, hər iki dövlətin xoşuna gəlmək üçün belə danışıb. Onların nə deməsindən asılı olmayaraq, regionda sülhün tərəfdarı Azərbaycandır".

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 115 (8251) 8 iyul 2023

**Artıq şəkk-şübhə yoxdur ki, Rusiya "sülhməramlı" kontingentin müvəqqəti nəzarət zonasında olan qanunsuz erməni silahlı birləşmələri ərazimizdən çıxarılmayınca Azərbaycan və Ermənistan arasında sülh anlaşması çətin olacaq.**

# ABŞ "4-cü bənd"lə bağlı hərəkətə keçir, Putin isə emissarını Bakıya göndərir

## Qanunsuz silahlı dəstələrin Qarabağdan çıxarılması Rusiyanın vecinə də deyil, Amerika isə...; Qriqoryanın Vaşinqton səfərinin mübhəmləri




Ən azından Ermənistan və Rusiya silahlı terrorçulardan ölkəmizə qarşı təzyiq rıçaqı kimi yararlanmağa davam edəcəklər. Halbuki 20 noyabr (2020) üçtərəfli sənədi bunun tam əksini onlardan tələb edir (4-cü bənd).

Təsadüfi deyil ki, Bakıda Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Nazirlər görüşündə çıxışı zamanı Azərbaycan Prezidenti İlham Əliyev bir daha bu məsələdə sərt və prinsipial mövqeyini ortaya qoydu: "Ermənistanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımağa məcbur olmasına baxmayaraq, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində hələ də Ermənistan silahlı qüvvələrinin qalıqları mövcuddur". Dövlət başçısı vurğulayıb ki, əgər Ermənistan həqiqətən də regionda çoxdan gözlənilən sülhdə maraqlıdırsa, onda onun silahlı qüvvələri Azərbaycanın Qarabağ bölgəsindən tamamilə çıxmalıdır. Bölgədəki erməni hərbi və yarımhərbi elementləri tərk-silah edilməli və tərxis olunmalıdır.

Lakin hələ ki qanunsuz dəstələrin Qarabağdan çıxarılması və ya tərk-silah edilməsi Rusiyanın vecinə deyil. Bu fonda nə qədər qəribə görünsə də, indi ən çox ABŞ 4-cü bəndin reallaşması üçün fəallıq göstərir. Söz yox ki, məsələdə Birləşmiş Ştatların öz marağı var. Çünki o halda Moskvanın separatizm kartı hesabına sülh müqaviləsinə əngəl olmaq imkanı zəifləyəcək və enində-sonunda bölgədən çıxmalı olacaq.

Ancaq əsas odur ki, bu Azərbaycanı da qane edir. Məlumatlara görə, 27-29 iyun aralığında Vaşinqtonda Azərbaycan və Ermənistan XİN rəhbərləri səviyyəsində sülh danışıqlarında əsas müzakirə mövzularından biri və birincisi elə erməni hərbi birləşmələrinin Qarabağdan çıxarılması ilə bağlı olub. Danışıqların ardından isə ABŞ-ın Ermənistandakı səfiri ilk dəfə olaraq, Qarabağdakı ermənilərin Azərbaycan tərkibində təhlükəsiz yaşayacağına əminlik ifadə eləməsi diqqət çəkdi.

"Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın tələm-tələsik ABŞ səfəri (hazırda Amerikadadır - red.) Türkiyə-Azərbaycan tandeminin tələbi ilə Qarabağ "müdafiə ordusunun" (Qarabağın rus sülhməramlıların müvəqqəti məsuliyyət zonasındakı qanunsuz erməni silahlı dəstə nəzərdə tutulur - red.) təcili olaraq ləğv edilməsinin zəruriliyi ilə bağlıdır".

Bunu isə erməni politoloq Artur Tovmasyan deyib. Onun sözlərinə görə, Qərbin təzyiqi altında İrəvan separatçıbaşı Araik Arutyunyanı silahlı dəstələri ləğv etməyə inandırmağa çalışacaq, ancaq "xalqın" narazılığından qorxan Araik üsyandan ehtiyat edir. Tovmasyan iddia edib ki, buna görə Araik və ətrafına "həyat və təhlükəsizlik zəmanətləri" təklif olunur.

Xatırladaq ki, cəmi iki həftə sonra - iyulun 21-də Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarı Mişelin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan rəhbərləri arasında daha bir üçtərəfli görüş nəzərdə tutulur.

**Yeri gəlmişkən, Nikol Paşinyan bildirib ki, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin mətni hələ imzalanmaya hazır deyil. Paşinyana görə, bunun üçün şərait yetişməyib:** "Ümid edirəm ki, qarşıdan gələn görüş zamanı Vaşinqtonda qeydə alınan müsbət məqamlar nəzərə alınacaq". O həmçinin iddia edib ki, Qarabağda Ermənistan ordusuna aid bir hərbi qulluqçu yoxdur və orada olanlar "özünümüdafiə qüvvələridir".

Sülh sazişinin imzalanmasından ötrü ən vacib məqamlardan biri və hətta birincisi isə erməni qanunsuz dəstələr və oyuncaq rejimlə bağlı Bakının haqlı və qanuni tələbinin reallaşmasıdır. Brüsseldəki növbəti zirvə görüşünədək bu yöndə hansısa pozitiv dəyişiklik, gəlişmə və ya dinamika mümkündürmü? Rusiya buna nə dərəcədə əngəl ola biləcək?

Bu arada məlum olub ki, Azərbaycan-Ermənistan danışıqlarında Rusiya XİN-in xüsusi nümayəndəsi İqor Xovayev tezliklə Bakıya gələcək. Bunu XİN-in sözçüsü Mariya Zaxarova deyib. Ancaq tarix hələ bəlli deyil.

Beləliklə, bu ərəfədə ABŞ və Rusiya regionda dominantlıq uğrunda rəqabətdədir. Bizə isə Qərbin burada nüfuzunun artması fonunda separatçı güclərin çıxarılması lazımdır, nəinki Rusiyanın maraqlarına xidmət edən hazırkı vəziyyət...

**Analitik Elxan Şahinoğluna görə, Qarabağ separatçıları əvvəlkitək Rusiya hərbi kontingentinin müşayiəti ilə bir məntəqədən o birisinə silah daşımaqda davam edirlər:** "Bu təxribatın sadə səbəbi var - separatçılar bilirlər ki, Rusiya hərbi kontingentinin müşayiəti olmasa, hərbi texnikaları havadan vurulacaq. Erməni separatçılarını müşayiət edən Rusiya hərbi kontingenti Kreml sahibinin əmrini yerinə yetirir".

**Ekspertin fikrincə, Ermənistanın baş naziri Nikol Paşinyan yenə Rusiya Prezidenti Vladimir Putinə zəng etməsi maraqlıdır:** "Kremldən yayılan açıqlamada telefon danışığının Paşinyanın təşəbbüsü ilə gerçəkləşdiyi bildirilib. Paşinyanın narahatlığı bölgədə gərginliyin artması ilə bağlıdır. O, Azərbaycanın Qarabağda antiterror əməliyyatına başlaya biləcəyindən narahatdır. Onun Putinə zəngi xəbərçilik anlamı daşıyır. Halbuki Putinə bölgədəki vəziyyət barədə hər gün kəşfiyyat məlumatları çatdırılır və onun Paşinyanın məlumatlarına ehtiyacı yoxdur".

**Politoloq Zaur Məmmədovun sözlərinə görə, Birləşmiş Ştatların parlamentarilərinin çıxışları hər kəsə məlumdur:** "Artıq ilyarımdır ki, Vaşinqtonun Cənubi Qafqazdakı proseslərə yanaşmasında ciddi dəyişikliklər var. Dəyişikliklər ondan xəbər verir ki, onlar bölgədəki reallığı qəbul ediblər. ABŞ, Azərbaycan, Ermənistan arasında anlaşma mövcuddur. Anlaşma ondan ibarətdir ki, Qarabağ erməniləri Azərbaycanın tərkibində qalmalı və oradakı separatçı qurum ləğv edilməlidir. Ermənistanda müxalifətin bu məsələyə necə yanaşmasından asılı olmayaraq, reallıq odur ki, həmin ölkənin vətəndaşları tərəfindən də bu məsələ qəbul edilməkdədir. Əgər belə olmasaydı, bu gün İrəvanda mitinqlərin şahidi olardıq. Qarabağın dağlıq hissəsində qondarma separatçı qurumun institutlarının və hərbi birləşmələrin ləğvi qaçılmazdır".

**Politoloqun fikrincə, bəzi qüvvələr buna qarşı hələ də mübarizə aparır, ancaq bu, yeni müharibə və antiterror əməliyyatı deməkdir:** "Biz qan tökülmədən bu məsələləri həll etmək istəyirik".

**Siyasi şərhçi Asif Nərimanlının bildirdiyinə görə, Paşinyan iddia edir ki, Qarabağda Ermənistan ordusu yoxdur, silahlı dəstələr separatçıların qondarma "müdafiə ordusu"dur:** "Nikol təkzib taktikasını davam etdirsə də, "Qisas 2" əməliyyatında məhv edilən 5 erməni hərbçinin ikisinin Ermənistan ordusunun üzvü olması və meyitlərinin İrəvana göndərilməsi faktı onun iddialarının legitimliyini zəiflədir. Bakı iki erməni hərbçinin meyitini nümayişkaranə formada qaytarmaqla Qarabağda erməni ordusunun qaldığı faktını beynəlxalq müstəvidə göstərdi və onlara qarşı atacağı addımları legitimləşdirdi. Bu faktdan sonra Paşinyanın "Qarabağda erməni ordusu yoxdur" iddiasını yenidən davam etdirməsi o deməkdir ki, çıxarılmayan Ermənistan ordusunun hərbçiləri də terrorçu olaraq qəbul olunacaq, mümkün əməliyyatlarda məhv edilən bu hərbçilərin meyitləri İrəvana qaytarılmayacaq".

**Təhlilçi hesab edir ki, bu, Paşinyan hökumətini həmin hərbçilərin ailələri qarşısında çətin vəziyyətə sala bilər:** "44 günlük müharibədən sonra Ermənistan hökumətinin ölən hərbçilərin yaxınları ilə problemləri hələ də davam edir. Nikolun iddiasından əl çəkməməsi və erməni qoşunlarını çıxarmaması Azərbaycana məsələni hərbi müstəvidə həll etməkdən başqa çıxış yolu qoymur".

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**




# Erməni diversantlara hökm oxundu

**Azərbaycanın dövlət sərhədini pozmaqda və ağır cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan vətəndaşı olan hərbi qulluqçular - Ovagimyan Arutyun Yurikoviç və Kazaryan Karen Aşotoviçə hökm oxunub.**

APA xəbər verir ki, Sumqayıt Ağır Cinayətlər Məhkəməsində hakim Fəhmin Hümbətovun sədrliyi ilə hakimlər kollegiyası müşavirədən qayıdaraq hökmü elan edib.

Hökmə əsasən, Ovagimyan Arutyun Yurikoviç və Kazaryan Karen Aşotoviç 11 il 6 ay müddətinə azadlıqdan məhrum ediliblər.

Dünən keçirilən prosesdə prokuror təqsirləndirilən şəxslərə 12 il cəza istəyib.



# Hayların yeni isterikası - Qarabağı unutmayınca 29.7 sizin olmayacaq!

Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Erməni adlı soysuzların məntiqini anlamaq üçün yəqin ki, gərək yalnız erməni olasan. Ya da heç olmasa, Makrondan-zaddan. O səbəbə az qala, iki əsrdir Qafqazdakı bu mənfur köçmən toplum, onun kilsəsi, lobbisi dünyanı bezdirib, hamını "qədim və əzabkeş millət"ə borclu sayır.**

Keçək mətləbə.

İkinci həftədir kapitulyant ölkədə Qarabağı Azərbaycanın tərkib hissəsi saymağın cinayət məsuliyyəti yaratmasını ("Qarabağ Azərbaycandır" deməyə görə 10-15 il həbs!) nəzərdə tutan qanunun qəbulu üçün radikal-revanistlər əl-ayağa düşüb, təxribatçı bir imza toplama kampaniyası aparırlar (50 min imza lazımdır ki, parlament məsələyə baxsın).

Şəkk-şübhə yox ki, bu təşəbbüs hər şeydən öncə Qarabağı Azərbaycanın ayrılmaz tərkib hissəsi sayan beynəlxalq birliyə və beynəlxalq hüquqa, o sırada ABŞ-a və onun sülh gündəliyinə meydan oxumaqdır.

İndi görün Xocalı caniləri - Köçəryan-Sərkisyan cinayətkar tandemi dönəmində Ermənistanın xarici işlər naziri işləmiş Livan ermənisi Vardan Oskanyan ad-soyadlı yaramaz (o da kampaniyaya qoşularaq imzasını atıb) bizə tərəf nə hürüb?

Deyir, "Qarabağı könüllü olaraq Azərbaycana təslim etsək, dünyanın ən axmaq xalqlarından birinə çevriləcəyik". Halbuki ay şərəfsiz, məhz bunun əksi sizin başdan xəstə yox, az-maz ağıllı tayfa olduğunuza dəlalət edə bilərdi!

Sitat: "Niyə bizim arsenalımızdakı vasitələrdən Qarabağ məsələsində istifadə olunmur? Ermənistan hakimiyyəti Qarabağı Azərbaycana təslim etmək qərarına gəlibmi? Yoxsa bu bizim hakimiyyət orqanlarının fantaziyasıdır? Bu hakimiyyət bizi axmaq sayır, ya özləri belə axmaqdırlar? İnanın ki, Qarabağı könüllü olaraq Azərbaycana təslim etsək, dünyanın ən axmaq xalqlarından biri sayılacağıq".

Oskanyanın iddiasına görə, Qarabağın Azərbaycana verilməsi sülh gətirməyəcək.

Bəs nə gətirəcək, "miatsum", "Böyük Ermənistan" sayıqlaması? Gətirdimi?..

"Paşinyan bu sənədi imzalasa, gələcək münaqişələrin toxumlarını səpəcək. Bu yük gələcək nəsillərə ötürüləcək. Biz Qarabağı itirə bilmərik (?!- Z.S.), amma məntiqli və çevik olmalıyıq", - eks-nazir sarsaqlamağa davam edib.

Nə deyəsən, öz xalqının başına bunca bəlalar gətirdikləri hələ də veclərinə deyil bu erməni avantüristlərin. Nə yazıq ki, onlar hələ də siyasət meydanında utanmazcasına varlıqlarını sürdürürlər.

Adətən insan yaşlaşdıqca müdrikləşir. Səhvlərini etiraf edir. Ağıllı-kamallı danışır. Ermənilər bu xüsusda da unikaldırlar. Yaşa dolduqca bir az da səfehləşir, xərifləyir, daha yırtıcı xarakterli olurlar. Hay toplumunun bir faciəsi də bu...

Axı Qarabağı Azərbaycana könüllü verməк və ya "Biz Qarabağı itirə bilmərik" nə demək? Sizdən nəsə asılı bir şey varmı, qalıbmı? Qarabağ sizdədirmi ki, hələ bir onu bizə "bağışlayıb-bağışlamamaq", "verib-verməmək" barədə ağlaşma qurmusunuz? Qarabağ - adı üstündə, sahibi bəlli. Tarix də biz tərəfdə, tarixçilər də - qondarmalar xaric.

Üstəgəl, bu torpaqlar beynəlxalq hüquqla çoxdan Azərbaycanın tərkib hissəsidir. Lap Ermənistanda yüz referendum, min imza toplama kampaniyası təşkil edin. Onların heç biri legitim sayılmayacaq. Çünki beynəlxalq hüquqa, BMT Nizamnaməsinə daban-dabana ziddir.

Necə ki, Qarabağda 1991-də keçirdiyiniz "referendum"un nəticələrini dünya qəbul eləmədi və Azərbaycan həm də bunu əsas götürərək, öz ərazilərini zor gücünə azad elədi. Yenə eyni hoqqabazlığa davam etsəniz, qarşılığında alacağınız bəlli: daha bir "dəmir qapaz"!..

Zavallı və bədbəxt haylar, Qarabağı həmişəlik unudun ki, bəlkə 29.7 min kv/km-lik saxta dövlətinizi sizə bağışladıq. Yoxsa bu dəfə Ermənistanın öz mövcudluğu sual altına düşəcək. Axırıncı şansınıza da şıllaq atmayın.

Əgər özünü guya savadlı və təcrübəli diplomat sayan, qlobal siyasətdən anlayan, beynəlxalq hüquqdan baş açan V.Oskanyan da bunu hesablaya bilmirsə, vay olsun hay qəbiləsinin halına! Nəsibiniz belədə, həmişə zəlalət olsun!

Gerçəkdən də hər xalq öz rəhbərinə və önündə gedənlərə layiqdir...

# 120 dövlətin "lokomotivi" - Qoşulmama Hərəkatının Bakı akkordları

**Azərbaycan paytaxtı daha bir möhtəşəm beynəlxalq tədbirə ev sahibliyi etdi. Bu dəfə Bakıda 120 üzv dövlət, 18 müşahidəçi ölkə və 10 beynəlxalq təşkilatın daxil olduğu, Azərbaycanın sədrlik elədiyi Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun iki günlük nazirlər görüşü reallaşdı. Yekun sənədlər, o cümlədən Bakı Bəyannaməsi qəbul olundu.**

susi olaraq vurğulanıb. Tədbir zamanı Hərəkatın gündəliyində duran və əhatə dairəsinə aid bir çox məsələnin əks olunduğu sənədlər yekdilliklə qəbul olunub. Nazirlər görüşü çərçivəsində Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş tədbir və "Kolonializmin tamamilə aradan qaldırılmasına doğru" mövzusunda konfrans xüsusi ... problemlər, dünyada gərginlikləri hansı dövlətlərin yaratdığı haqda çox vacib məsələlərə toxunuldu. Prezidentinin qaldırdığı məsələlər bütün dünyanı narahat edən, düşündürən məsələlərdir. Ona görə də dünya mediasının xüsusi diqqətini cəlb etdi. Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşü dünyanı təhdid edən ... vermir, BMT-də ciddi islahatların aparılması qaçılmazdır, BMT Təhlükəsizlik Şurası keçmişin qalığıdır" deyərək gerçəklikləri bütün dünyaya bəyan etdi. Prezident İlham Əliyevin rəhbərlik etdiyi müddətdə Qoşulmama Hərəkatı inistitusional inkişaf edərək dünyanın güc mərkəzlərinin səviyyəsinə yüksəlib. Bakıda keçirilən son böyük iclas bir

Bu tədbir şübhəsiz ki, Azərbaycanın qlobal siyasətdə, regional arxitekturanın qurulmasında özünəməxsus və vazkeçilməz rolunu bir daha təsdiqlədi. Onun artıq oturuşmuş, özünə güvənli və güvənilən, sülhpərvər və haqsevər ölkə, haqqı pozulanın yanında olan dövlət olduğunu növbəti dəfə isbatladı. Eyni zamanda qarışıq dünyamızda, Ermənistanın Fransa timsalında havadarının aşırı həyasızlığı fonunda dövlətimizin beynəlxalq imicinə əlavə və qiymətli siyasi xallar qazandırdı.




Tədbir çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev bir sıra mühüm qəbullar keçirdi ki, bu da əlbəttə ki, ölkəmizin haqlı mövqeyinin beynəlxalq miqyasda daha da möhkəmlənməsinə gətirəcək.

**Azərbaycan Xarici İşlər Nazirliyi iyulun 5-6-da Bakıda Azərbaycan Respublikasının sədrliyi ilə keçirilən Qoşulmama Hərəkatının Koordinasiya Bürosunun nazirlər iclasının uğurla yekunlaşdığı barədə xüsusi açıqlama yayıb. Açıqlamada deyilir:** "Nazirlər iclasında Qoşulmama Hərəkatının üzv dövlətləri, Hərəkat yanında müşahidəçi statusu almış dövlətlər və beynəlxalq təşkilatlar, xüsusi qonaq qismində dəvət olunan ölkə və təşkilatların təmsilçiləri daxil olmaqla, ümumilikdə 93 ölkə, 11 beynəlxalq təşkilat iştirak edib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi və çıxışı ilə başlayan nazirlər iclası zamanı hərəkatın institusional inkişafı, xüsusən də müvafiq olaraq 2021-ci və 2022-ci illərdə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin və Qoşulmama Hərəkatı Gənclər Təşkilatının yaradılması, habelə Cənubi Sudanın Hərəkata yeni üzv qəbul edilməsi kimi Azərbaycanın 2019-2023-cü illəri əhatə edən sədrliyinin uğurları xüsi marağa səbəb olub. Azərbaycanın sədrliyi ilə geniş müzakirələr və qətiyyətli səylər nəticəsində iclasda Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı Anım Bəyannaməsi, Yekun sənəd, Bakı Bəyannaməsi, Ev sahibi olan ölkəyə təşəkkür, eləcə də 2024-cü ildə Parisdə keçiriləcək Olimpiya Oyunlarına dair Xüsusi Bəyannamə kimi mühüm sənədlər qəbul edilib".

**Deputat Ceyhun Məmmədov "Yeni Müsavat"a bildirdi ki, Bakıda keçirilən tədbir çox yüksək səviyyədə təşkil edilmişdi və olduqca məhsuldar oldu:** "Təsadüfi deyil ki, bu beynəlxalq tədbir dünya mediasının xüsusi diqqətində idi, dünyanın bir çox aparıcı media orqanları, xəbər agentlikləri Bakıda keçirilən bu tədbirdən yazdı, reportajlar verdi. Azərbaycan böyük beynəlxalq təşkilatların böyük zirvə görüşlərinin, toplantılarının keçirildiyi ölkə kimi növbəti dəfə tanındı, Azərbaycanın mövqeləri bir qədər möhkəmləndi. Tədbirdə regionu, dünyanı narahat edən problemlərə, onun həlli yollarına diqqət cəlb edildi.

Xüsusilə Azərbaycan Prezidentinin çıxışında qaldırdığı məsələlər təkcə yerli, regional məsələlər deyildi, eyni zamanda qlobal, bütün dünyanı əhatə edən məsələlər idi. Dünyamızın bu gün üzləşdiyi problemlərin qaldırılması və həllinin vacibliyinin vurğulanması, təkliflər irəli sürülməsi ilə də yadda qaldı. Beynəlxalq ictimaiyyət yəqin ki, bunu yüksək qiymətləndirəcək".

**Deputat Elman Nəsirov isə bildirdi ki, Bakıda keçirilən Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşü müasir narahat dünyamızda beynəlxalq hüquq və beynəlxalq qanunlara əməl olunması istiqamətində görülən böyük əməli iş, böyük siyasi və geosiyasi hadisə oldu:** "Bu olduqca önəmli istiqamətdə Qoşulmama Hərəkatının üzvü olan 93 ölkə və müşahidəçi qismində təmsil olunan 12 ölkənin iştirakı ilə dünyanın beynəlxalq nizamının yenilənməsi üçün müzakirələr, fikir mübadiləri aparıblar, müxtəlif çağırışlar ediblər. Demək olar ki, bu böyük toplantıda bütün dünya dövlətlərinin nümayəndəsi var idi. Belə bir möhtəşəm toplantıda Azərbaycan Prezidenti cənab İlham Əliyevin çıxışı, dünya nizamını yeniləyən, daha ədalətli, daha bərabərhüquqlu dünya üçün inqilabi xarakterli bir çıxış oldu.

Cənab İlham Əliyevin çıxışı bütünlüklə beynəlxalq hüquqa, bərabərlik və sülh prinsiplərinə əsaslanır. Müasir dünyamızda belə bir çıxış etmək olduqca böyük cəsarət tələb edir. Cənab Prezident cəsarətlə "BMT bəşəriyyətin gözləntilərinə cavab vermir ... daha bunun sübutu oldu".

**Öz növbəsində deputat Hikmət Babaoğlu hesab edir ki, Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakıda keçirilən iclası dünyamiqyaslı mötəbər tədbir kimi tarixə düşüb:** "Qurumun beynəlxalq münasibətlər sistemində rolunun artdığı bir daha məhz Bakıdan dünyaya nümayiş etdirildi. 2019-cu ildən Azərbaycanın Hərəkata sədrlik etdiyi dövrdə, qurumun həm institusional, həm də dünyada baş verən hadisələrə müdaxilə etmə baxımından rolunun artdığını Prezident İlham Əliyev də çıxışında qeyd etdi. Azərbaycanın rəhbərlik etdiyi dövrdə Hərəkatın Gənclər Şurası yaradılıb. Parlamentlərarası əlaqələndirmə şurası formalaşıb. Bütün bunlar yeni dünya nizamında Hərəkatın rolu ilə bağlı yeni perspektivlər yaradıb. Ona görə də Prezident yeni dünya nizamı və Qoşulmama Hərəkatı ifadələrini birlikdə işlədərək, diqqəti Hərəkatın bu prosesdə mühüm rol oynaya biləcəyinə yönəltdi. Azərbaycan Prezidenti Qoşulmama Hərəkatının sədri olaraq qlobal bir lider kimi çıxış etdi. Bu böyük toplantı dünya ictimaiyyətinin diqqətini cəlb etdi. Bakı görüşündə qəbul edilən bəyannamə və digər sənədlər ciddi əhəmiyyət kəsb edən sənədlərdir".

❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"

Yeni Müsavat
N 115 (8251) 8 iyul 2023

# "Sabah elə proseslər baş verə bilər ki, 2025-ci ili gözləməyə ehtiyac qalmaz"

## Qüdrət Həsənquliyev: "Erməni separatçılarının istənilən artıq hərəkətinə, o sırada silahlı hərbçilərin yerdəyişmə cəhdlərinə qarşı dərhal zərbələr endirilməlidir"

**Qarabağda erməni separatçı-terrorçu dəstələrin və onlara havadarlıq edən Rusiya hərbi kontingentinin təxribatları davam edir. Artıq Azərbaycanın antiterror əməliyyatına başlaması qaçılmaz zərurətə çevrilməkdədir. Bu arada Ermənistan rəhbərliyinin yaxasını kənara çəkərək Qarabağda Ermənistan ordusuna məxsus hərbçilərin olmadığını iddia etməsi yeni situasiya yaradıb.**

*Ötən ay "əgər 2020-ci ilin noyabrında müharibəni dayandırmasaydıq, Qarabağda 25 min hərbçimiz mühasirəyə düşəcəkdi" deyən Paşinyan bu gün həmin hərbçilərdən imtina edir. BAXCP sədri, Milli Məclisin Hüquq Siyasəti və Dövlət Quruculuğu Komitəsinin sədr müavini Qüdrət Həsənquliyev "Yeni Müsavat"ın suallarını cavablandırıb.*

**- Qüdrət bəy, Azərbaycan Prezidenti Qarabağda Ermənistan ordusunun hərbçiləri ilə bağlı tələblərini növbəti dəfə bəyan etdikdən sonra Paşinyan Qarabağda Ermənistan hərbçilərinin olmadığı iddiasını səsləndirdi. Onun reaksiyası Azərbaycana "Qarabağdakı qanunsuz silahlı birləşmələrlə, terrorçu dəstələrlə özünüz bilərsiniz" cavabı sayıla bilərmi? Sizcə, bundan sonra antiterror əməliyyatları üçün hansısa maneə qalırmı?**

- Paşinyan gözünün içinə qədər yalan danışır. Amma bəli, o mənə çıxır. Azərbaycan bu istiqamətdə müəyyən addımlar atmalıdır. Bu addımların atılmasına ona görə ehtiyac var ki, Ermənistanda heç bir siyasi lider Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyan sülh sazişinə imza atmayacaq. Deyəcəklər ki, sizin ərazi bütövlüyünüzü tanıyırıq, Sərkisyan da, Köçəryan da deyirdi. Ona görə də onlar Dağlıq Qarabağdakı qondarma rejimi müstəqil dövlət kimi tanımadılar. Həmişə deyiblər ki, "bəli, biz Azərbaycanın ərazi bütövlüyünü tanıyırıq, 1991-ci il Almatı Bəyannaməsini də imzalayıblar. Amma Dağlıq Qarabağdakı ermənilər "öz müqəddəratlarını təyin ediblər", öz "dövlətlərini qurublar", siz də onlarla danışın, razılaşın".

Yəni mahiyyət etibarilə heç bir dəyişiklik baş verməyib. Yəni bu, üskük fırladılması kimi, söz fırlada bilərlər. Ancaq mahiyyət dəyişmir. Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımır. Bu, belə olmasaydı, Paşinyan Azərbaycanın təqdim etdiyi 5 bəndlik sülh sazişinə münasibətdə deyərdi ki, bəli, gəlin 1991-ci ilin sərhədləri - hansı ki, biz SSRİ tərkibindən çıxmışıq - daxilində bir-birimizin ərazi bütövlüyünü tanıyaq. Saziş imzalayaq ki, dövlətlər bir-birinin ərazi bütövlüyünü tanıyır, sərhədlərin də delimitasiya və demarkasiyası prosesinə başlanılacaq, qalan məsələlərdə isə oturaq, danışaq, razılaşaq.

**- Deyir, amma irəliyə addımlar atmır...**

- Əlavə şərtlər qoyurlar. Bilirlər ki, Azərbaycan buna razılaşmayacaq.

**- Üstəlik, 1975-ci il xəritəsini ortaya atıblar. Məqsəd-məram nədir? Niyə məhz 1991-ci il yox, 75-ci il?**

- Bunlar hamısı bəhanədir. Nə mənası var? Əgər həmin xəritə əsasında Azərbaycan və Ermənistanın ərazisi müəyyənləşib, bildirilib ki, bu ölkələr müvafiq olaraq 86,6 min kv/km və 29,743 min kv/km-lik ərazilərə sahibdirlər, üstəlik, Paşinyan özü də bunu deyirsə, o halda xəritənin nə əhəmiyyəti var? O ərazilər həmin xəritə ilə müəyyənləşib də. Azərbaycan da razılaşıb, erməni tərəf də. Deməli, bunların hamısı bəhanədir. Xəritə məsələsi əhəmiyyətli deyil. Sadəcə, Ermənistan istəyir ki, Azərbaycan beynəlxalq güclərin, o cümlədən 30 illik işğal dövründə Ermənistanı açıq da olmasa, birmənalı şəkildə dəstəkləyən, işğalçını müdafiə edən Fransa, ABŞ daxil olmaqla, digər qüvvələrin təminat verdiyi Qarabağdakı separatçı, əslində işğalçı rejimlə danışıqlara başlasın. Həmçinin böyük dövlətlər də separatçıların oradakı varlığına bir təminatçı olsunlar. Onların təminatı ilə danışıqlar başlayandan sonra isə Azərbaycan, ümumiyyətlə, orada antiterror əməliyyatı keçirə bilməyəcək. İndi belədir ki, rusların oradakı 5 illik missiyası başa çatandan sonra Azərbaycan bölgədə dövlət suverenliyini bərpa etməlidir. Amma biz Ermənistanın şərtini qəbul etsək, o halda faktiki surətdə biz keçmiş Dağlıq Qarabağın de-fakto müstəqilliyini tanımış oluruq.

Bunlar o şərti qoyurlar, sözsüz ki, Azərbaycan həmin şərtlərlə sülh sazişini imzalaya bilməz. Dövlət başçısı deyir ki, Qarabağ Azərbaycanın daxili işidir, biz oradakı ermənilərlə özümüz danışacağıq. Amma onlar Azərbaycanın ərazi bütövlüyünü tanıdıqlarını bəyan etməlidirlər, digər məsələləri, onların təhlükəsizliyi, hüquqları ilə bağlı məsələləri müzakirə edə bilərlər. Ermənistan isə buna razı olmur. Əslində Ermənistan sülh sazişindən qaçır. Çox təəssüf ki, ermənipərəst Qərb dairələrinin trolları qismində çıxış edən Azərbaycandakı bəzi siyasi partiyalar, bəzi özünü radikal müxalifətçi adlandıran şəxslər də Azərbaycan hökumətindən Ermənistanla sülh sazişi bağlamağı tələb edirlər. Əslində bununla dünya birliyinə mesaj verirlər ki, guya sülh sazişinin imzalanmamasının günahkarı Azərbaycandır. Yəni bunlar ermənilərə birbaşa xidmət eləmiş olurlar. Sonra da xalqa vətənpərvərlikdən danışırlar, vətənpərvərlik dərsi keçirlər. Halbuki bu adamların ipi kənar güclərin əlindədir və onlar da fit çalmaqla bunları istənilən vaxt istənilən bəyanatları verməyə məcbur edirlər, yönəldirlər.

**- Vaxtaşırı belə məlumatlar yayılır ki, Azərbaycana təzyiqlər var. Necə bilirsiniz, təzyiqlər əsasən nələrlə bağlıdır?**

- Bu gün Azərbaycana qarşı təzyiqlər onunla bağlıdır ki, Ermənistanın şərtləri ilə sülh sazişi imzalasın. Əlbəttə, buna getmək olmaz. Hesab edirəm ki, Azərbaycan bu məsələdə çox haqlıdır. Ermənistan bizim təklif etdiyimiz o 5 bənd əsasında sülh sazişini imzalamalıdır. Bu, olmayacağı təqdirdə... Yenə deyirəm, Azərbaycan Rusiya ilə danışıqlar aparmalıdır. Biz bilirik ki, Xankəndidə dövlət suverenliyimizi bərpa edə bilməməyimiz orada rus sülhməramlılarının olması ilə bağlıdır. Həm də Azərbaycan öz üzərinə müəyyən öhdəlik götürüb ki, Rusiyanın köməkliyi ilə biz dinc yolla, yenidən hərbi əməliyyatlar keçirmədən oradakı erməni hərbi birləşmələrini tərk-silah edək, regiona sülh gəlsin, kommunikasiyalar bərpa olunsun.

**- Rusiyanın bu sonluğu istədiyini güman edirsinizmi? Hətta Rusiyanın Azərbaycana qarşı məkrli planları müzakirə mövzusudur. Xocalı hava limanından təxribatçı uçuşlar da narahatlıq doğurur. Belə olan halda nə etməliyik?**

- Çox təəssüf ki, Rusiya da buna maraqlı görsənmir. Rusiya münaqişənin davam etməsində maraqlıdır. O baxımdan da Rusiya Ermənistana heç bir formada təzyiq etmir. Yəni təzyiq etsəydi, çoxdan sülh sazişi imzalanardı. Ona görə də Rusiya ilə açıq danışmalıyıq. Azərbaycan bir az səbirli olmalıdır. Əgər Rusiya Azərbaycanın təkliflərinə razılıq verməsə, sülhməramlıların müddəti başa çatandan sonra - Rusiyaya burada özünü beynəlxalq aləmə haqlı təqdim etmək üçün hansısa bəhanə verməmək üçün - ən geci 2025-ci ildə Azərbaycan kənara boylanmadan, heç kimlə məsləhətləşmədən güc tətbiq etməlidir, digər əraziləri üzərində öz suverenliyini bərpa etməlidir. Əslində biz bununla, yəni Qarabağda suverenliyimizi bərpa etməklə Ermənistan liderlərinin də sülh sazişi imzalamasını asanlaşdıracağıq.

Bəlkə də bu dəqiqə Paşinyanın da könlündən keçir ki, Azərbaycan girsin o ərazilərə, suverenliyini bərpa eləsin, sonra mən sülh sazişini imzalayım. Yenə də deyirəm, indiki halda Ermənistanda heç bir lider sülh sazişini imzalamayacaq. Çünki imzalasa, ermənilər onu xəyanətdə ittiham edəcəklər, Qarabağı Azərbaycana "bağışlamış" siyasətçi kimi lənətlənəcəklər. Ona görə də Paşinyan tarixdə bu adla qalmaq istəmir. Ancaq o da istəyir ki, Azərbaycan Qarabağda öz suverenliyini bərpa eləsin və bununla regiona sülh gəlsin.



> "Azərbaycan tərəfindən hansısa addımlar atılarsa, o halda öz imicini qoruyub-saxlamaq üçün Rusiyanın reaksiya vermək ehtimalı var"

**- Azərbaycan Laçın yolunda nəzarəti tam bərpa etsə də, hava yolu faktiki olaraq Rusiyanın nəzarətindədir. Rusiya hərbçilərinin Xocalı aeroportundan uçuşları intensivləşdirməsi ilə bağlı məsələlər necə tənzimlənməlidir?**

- Bir daha söyləyirəm, faktiki olaraq keçmiş Dağlıq Qarabağa hazırda Rusiya nəzarət edir. Azərbaycan da çalışır ki, böyük qonşusu olan bu ölkə ilə münasibətləri gərginləşdirməsin. Biz istəyirik ki, bu məsələdə Rusiyanın xoş niyyəti olsun və Azərbaycan özünün ərazi bütövlüyünü bərpa etsin. Təəssüf ki, Rusiya hələlik bunda maraqlı görünmür. Onlar bu cür əsaslandırırlar ki, Xocalı aeroportu vasitəsilə ərazidəki sülhməramlılara ərzaq, digər tələbat malları daşıyırlar. Mən belə hesab edirəm ki, 2025-ci ilədək Azərbaycan bu danışıqları davam etdirməlidir və təmkin nümayiş etdirməlidir.

Həm də biz bölgədə baş verən proseslərin nəticələrini gözləməliyik. Sabah bölgədə elə proseslər baş verə bilər ki, heç 2025-ci ili gözləməyə də ehtiyac qalmaz. Ona görə Azərbaycan Ermənistana təzyiqləri artırmalıdır. Amma bu təzyiqlər son dərəcə düşünülmüş və təmkinli olmalıdır. Hesab edirəm ki, İlham Əliyev nə etdiyini bilir və biz bu şansı qaçırmayacağıq. Azərbaycan Qarabağ üzərində öz dövlət suverenliyini, inşallah, bərpa edəcək.

**- Bəs təminat varmı ki, Rusiya 2020-ci ilin noyabrında olduğu kimi, bir helikopterini qaldırıb təxribat törətməyəcək, daha 5 il bölgədə qalmaqdan ötrü Azərbaycana qarşı məkrli planı həyata keçirməyəcək?**

- Rusiya çıxılmaz vəziyyətdə qalsa, bunu edə bilər. O vaxta baxmayın. 2020-ci ildə hələ Ukraynada savaş başlamamışdı, Rusiya onda çox güclü idi. İndi Rusiyanın hərbi potensialının 50 faizi Ukraynada məhv edilib. Həmçinin 2020-ci ildən sonra Şuşa Bəyannaməsi imzalanıb, Türkiyə ilə Azərbaycan daha da yaxınlaşıb, Azərbaycanın, Türkiyənin regionda və dünyada nüfuzu daha da artıb, Rusiyanın özünün Türkiyədən müəyyən mənada asılılığı var. Eyni zamanda Azərbaycan artıq özünü daha güclü, inamlı hiss edir. Ona görə də düşünmürəm ki, Rusiya o cür təxribatlara gedə bilər.

Əlbəttə, Azərbaycan tərəfindən hansısa addımlar atılarsa, o halda öz imicini qoruyub-saxlamaq üçün Rusiyanın reaksiya vermək ehtimalı var. Amma öz tərəfindən bu təxribatlar ehtimalı çox azdır. Odur ki, Rusiya sülhməramlılarının orada olduğu dönəmdə elə davranmalıyıq ki, Rusiya dövləti məcburiyyət qarşısında qalıb Azərbaycanla hərbi konfliktə girməsin. Ona görə də 2025-ci ili gözləməliyik. Yenə deyirəm, regionda elə geosiyasi dəyişikliklər baş verə bilər ki, Azərbaycan 2025-ci ili gözləməz. Bəlkə elə ruslar öz qoşunlarını götürüb gedəcəklər, biz sakitcə məsələləri həll edəcəyik. Amma birmənalı şəkildə erməni silahlı birləşmələrinə təzyiqlər davam etməlidir. Erməni separatçılarının istənilən artıq hərəkətinə, məsələn, silahlı hərbçilərin yerdəyişmə cəhdlərinə qarşı dərhal zərbələr endirilməlidir. 2025-ci ilədək onların canını almalıyıq. 2025-ci ildə bir tərs şapalaq vurmaqla məsələni yekunlaşdırmalıyıq, həmin müddətədək onların hərbi bazalarını dağıtmalıyıq, hərbi potensialını tam tükətməliyik. Ermənistanın Qarabağdakı 15-16 minlik ordusunun canını almalıyıq, yavaş-yavaş sıradan çıxartmalıyıq, tam demoralizasiya etməliyik. Onların döyüş ruhunu sındırmışıq, amma tamam sındırmalıyıq ki, 2025-də bu məsələyə çox asan şəkildə nöqtə qoya bilək.

**❑ Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 115 (8251) 8 iyul 2023



# Vətəni sevməyin məbləği

Zamin HACI
zaminhaci@gmail.com

**Bu günlərdə şanlı hüquq-mühafizə orqanlarımız bir nəfər ictimai fəalı tutub qoduqluğa salmışdır, 4 aylığına. Hələ bu 4 ay istintaq müddətidir, ondan sonra yəqin minimum 4 il həbs-zad olacaqdır. Fəalın cinayəti isə hansısa qazilər və şəhid ailələrinə qarşı dələduzluq, onlara dövlətin ayırdığı vəsaitləri basıb yeməkmiş.**

Görünməmiş hadisədir. Əlbəttə. Azərbaycanda qazilərə çatacaq pulları kim yeyə bilər? Mümkün deyil. Hətta təklif edirəm yoxlamaq üçün, ekskrement... üzr istəyirəm, eksperiment olaraq küçənin ortasında (məsələn, lap mərkəzi İstiqlaliyyət küçəsi olsun, özü də baş tərəfində, Filarmoniyanın dalında) bir diplomat pulu açıq formada qoyaq, üstünə də yazaq: "Bu pullar şəhid ailələri, qazilər və müharibə veteranları üçün nəzərdə tutulmuşdur". Sonra çıxaq gedək, yenə məsəl üçün, ya Bali adasına, ya da Qəbələyə, bir ay kefin gələn dincələk, qayıdıb gələndə yolumuzu salaq Filarmoniyanın, türkün sözü, dalından. Nə görəcəyik? Görəcəyik pullar cağbacağ yerində durur, bir nəfər belə bir manata tamah salıb götürməmişdir. Bəlkə uzağı amansız Bakı küləyi pulları az-maz yerindən tərpədib üstünə toz qondurmuşdur. Şair demişkən: "Küləklər, küləklər, ey sərin küləklər, Sizdə var qoxusu hər yerin, küləklər!"

Yazı çox küləkli olmasın deyə, keçirəm sözümün canına. Yuxarıda yazdığım kimi, bizdə sosial ödənişlər daim dövlətin və xalqın diqqət mərkəzindədir. O baxımdan kiminsə qazi-şəhidlərdən oğurluq eləməsi marağımı çəkdi. Üstəlik, oğrunun adresi fantastik dərəcədə yerinə düşmüşdü: sən demə, bu yoldaş...

Yox, oxucuları bir qədər də intizarda saxlamaq istəyirəm. Gəlin düşünək, qazi-şəhidlərə qarşı dələduzluq edən təşkilatın adı, sizcə, nə olsa yaxşıdır? Bir-iki variant verin. Əvəzinizə düşünürəm: bəlkə Sosial Müdafiə Nazirliyidir? Yaxud Yanıqpəyə rayon icra hakimiyyəti? Bəlkə Qayıdış Komitəsidir? Yainki Arvad-Uşaq Nazirliyi? Tapmadınız.

Doğrusu, anlayıram, bunu tapmaq çətindir. Çünki şəhid-qazilərə ayrılan pulları əkişdirməkdə suçlanan yoldaş nə az, nə çox, "Vətənpərvərlər" İctimai Birliyinin sədriymiş! Nə qədər gözəldir... Yox, əlbəttə, oğurluğun gözəl olduğunu təbliğ etmirəm, bunun üçün orta məktəblərimizdə "AUE jizn voram" mahnısıyla məzun törəni qayıran kollektivlər vardır. Mən, sadəcə, təşkilatın adındakı və fəaliyyətindəki gözəlliyə heyranam. Necə də üst-üstə düşmüşdür... Yoxsa bəzən baxırsan adamın adını Cəsarət qoyublar, lakin yanında şar partlayanda altını batırır.

Uşaq vaxtı kənddə dəlləyimiz vardı, hansı üsul desən də saçı öz bildiyi kimi qırxardı və prinsipcə bircə üsulu vardı - keçəl eləmək, bax, həmin bu kişi bir dəfə küləyin qovduğu sellofan torbadan qorxub evinə qədər qaranəfəs qaçmışdı. Lakin rəhmətliyin ismi-şərifi Xanəhməd idi.

Mövzudan uzaqlaşırıq, ancaq Xanəhməd kişinin oğlu Firudin sinif yoldaşım olub, gözəl uşaq idi, Qarabağda dava başlayanda xeyli vuruşmuşdu. Sonra çörək dalıyca Rusiyaya getdi, orda da bir qonşu kəndçimiz 1000 rubl borcu verməmək üçün onu namərdcəsinə öldürdü.

Bəli, Vətənpərvərlər Təşkilatının müdiri çox "vətənpərvər" hərəkət törədibdir. Yazının sonunda Saltıkov-Şedrinə sırınan "Əgər Rusiyada vətənpərvərlikdən danışırlarsa, deməli oğurlayırlar" afyorizmini və Tolstoya yamanan "Patriotizm əclafların son sığınacağıdır" məsəlini yazmaq olardı, lakin qeyd etdiyim kimi, bunların müəllifləri başqalarıdır. Ona görə yazını açıq buraxıram, bitirmirəm.

Görünür vətənpərvərlik elə mövzudur ki, haqqındakı müdrik fikirləri də əkişdirməyə istər-istəməz meyl yaranır. Yenə şair demiş: "Vətəni sevməyən insan olmaz, Olsa ol şəxsdə vicdan olmaz".

***P.S.*** Heyf ki, xəbərdə Vətənpərvərlər Təşkilatımızın sədrinin şəhid və qaziləri neçə manatlıq "sevdiyi" göstərilməmiş, bizi bir növ nigaran buraxmışlar. Məbləğ vacibdir. Məhəbbət pulla ölçülmür, ancaq pulun miqdarıyla ölçülə bilər.



# Xankəndinə enmək zamanı - İrəvan Bakını tələsdirir: ŞOK gəlişmə

## "X günü" hamıdan yaxşı artıq separatçıların özlərinə bəllidir; revanşistlərin sülh istəyi, yoxsa müharibə sifarişi? Komandolarımız və "Bayraktar"lar isə lap yaxınlıqda...

**Qarabağdakı qanunsuz silahlı dəstələrin axırına çıxılacaq gün uzaqda deyil. Bunu Ermənistan rəhbərliyi ilə yanaşı, Rusiya "sülhməramlı" kontingentin sayəsində hələ ki öz aciz varlığını saxlayan oyuncaq rejimin cinayətkar təmsilçiləri də çox yaxşı bilirlər. O səbəbə "X günü"nün də fərqindədirlər. Səksəkədədirlər.**

"Yeni Müsavat"ın xəbər verdiyi kimi, iyulun 6-da Bakıda Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Nazirlər görüşündə çıxışı zamanı Azərbaycan Prezidenti İlham Əliyev bu xüsusda ölkəmizin prinsipial mövqeyini bir daha bəyan edib. "Ermənistanın Qarabağ Azərbaycanın tərkib hissəsi kimi tanımağa məcbur olmasına baxmayaraq, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində hələ də Ermənistan silahlı qüvvələrinin qalıqları mövcuddur", - deyən dövlət başçısı vurğulayıb ki, Ermənistan həqiqətən də regionda çoxdan gözlənilən sülhdə maraqlıdırsa, onda onun silahlı qüvvələri Azərbaycanın Qarabağ bölgəsindən tamamilə çıxmalıdır. Bölgədəki erməni hərbi və yarımhərbi elementləri tərk-silah edilməli və tərxis olunmalıdır.

Lakin bir gün sonra Ermənistan baş naziri Nikol Paşinyan Azərbaycanın Qarabağdakı erməni hərbi birləşmələrin çıxarılması tələbinə cavabında iddia edib ki, Qarabağda Ermənistan ordusu yoxdur, silahlı dəstələr separatçıların qondarma "müdafiə ordusu"dur.

Yəni ki, "gedin, o - siz, o da separatçılar!" Halbuki iyunun 27-dəki silahlı təxribat zamanı Qarabağda gəbərdilən 5 erməni hərbçisinin ikisi (!) Ermənistan vətəndaşı idi. İkinci yandan, hansı "müdafiə ordusu"ndan dəm vurur Nikol Vovayeviç? Onun özünün də imza atdığı 10 noyabr kapitulyasiya sənədindən xəbəri yoxmu? Həmin üçtərəfli anlaşmanın harasında belə bir ifadə yer alıb, göstərə bilər?..

*****

İstənilən halda, Azərbaycan nə edəcəyini bilir. Hər şeyin öz vaxtı var təbii ki. Komandolarımız bir azca yuxarıda, ətraflarda gözləyir, "Bayraktar"lar da harada lazımdır, orada! Aşağıya - Xankəndinə enəcəyimiz gün çox uzaqda sayılmaz.

Başqa sözlə, Nikol Paşinyan öz təkzibini aparıb hiyləgərcəsinə "artsax"ın "özünümüdafiə" motivi ilə əlaqələndirməyə çalışsa da, əslində Azərbaycanın əlini gücləndirən mövqe sərgiləyir. Hətta Bakını antiterror əməliyyatına tələsdirir. Çünki heç bir normal dövlət öz ərazisində ikinci qanunsuz ordunun varlığına dözüm göstərməz. Heç Kremlin forpostu Ermənistan da.

Ötən saylarımızda yazdığımız kimi, Qarabağdakı oyuncaq rejimin "kitabı" 44 günlük müharibədən sonra bağlanıb. Bircə tabutuna vurulacaq son mismar qalır. İndi masa üzərində 29.7 min kv km-lik Ermənistanın öz taleyi qoyulub.

Əgər İrəvan rəsmiləri, erməni siyasi elitası və lobbisi, ümumən erməni toplumu bu aralarda özlərini ağıllı və adekvat aparsalar, nəhayət, beynəlxalq hüquqa, o sırada BMT Nizamnaməsinə hörmət eləməyi öyrənsələr, ola bilsin, dünyanın siyasi xəritəsində Ermənistan adlı qondarma dövlət bir müddət qalsın. Əks halda, haylar yenə özlərindən küssünlər. İt də gedəcək, ip də...

*****

Belə bir perspektivi Ermənistanda da az-çox anlayanlar var.

**"Əslində Vaşinqton danışıqları "artsax" məsələsi deyil, Ermənistanın statusunun müəyyənləşdirilməsi ətrafında gedir".**

**Qəzetimizin məlumatına görə, bunu yerli mediaya müsahibəsində erməni politoloq Beniamin Matevosyan deyib.**

"Danışıqlarda Azərbaycan israr edir ki, demarkasiya və delimitasiya prosesi onların xəritələri əsasında aparılsın, "artsax"la danışıqlar şaquli şəkildə aparılsın. Vaşinqton danışıqları "artsax" məsələsi yox, Ermənistanın statusunun müəyyən edilməsi ətrafındadır. Türkiyə-Azərbaycan hərbi-siyasi bloku çərçivəsində Ermənistanın hansı statusa malik olacağı, heç bir təhlükəsizlik zəmanəti olmayan bir status", - Matevosyan bildirib.

**Erməni politoloq ABŞ səfirinin Qarabağdakı erməni icmasının Azərbaycanın bir hissəsi kimi yaşaya biləcəyi barədə açıqlamasından təəccüblənməyib. Onun sözlərinə görə, N.Paşinyan 2022-ci il oktyabrın 6-da Praqada Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıyıb və ABŞ səfiri də, sadəcə, hamıya bəlli olanı bəyan edib.**

"Əgər həmin bəyanatı bir az da açsaq, "artsax" xalqı üçün ən yaxşı təminat Azərbaycan Konstitusiyasına əməl olunması olacaq. "Artsax" üçün beynəlxalq təhlükəsizlik zəmanəti yoxdur. ABŞ bu barədə heç vaxt danışmayıb, bu, ən böyük aldanışdır. Nikol Paşinyanın bəyendiyi proqrama əsasən "artsax" heç bir status olmadan Azərbaycanın tərkib hissəsi olacaq və Azərbaycan Konstitusiyası təhlükəsizliyin təminatçısı olmalıdır. Biz ABŞ səfirinə səmimiyyətinə görə təşəkkür etməliyik. Bizim ümumiyyətlə, Amerika tərəfinə sualımız olmamalıdır. Onlar öz maraqlarını güdürlər, Rusiyanı bütün təsir zonalarından sıxışdırıb çıxarmalıdırlar", - deyə o əlavə edib.

*****

Bu arada Qarabağ Azərbaycanın tərkib hissəsi sayımağın cinayət məsuliyyəti yaratmasını ("Qarabağ Azərbaycandır" deyənə 10-15 il həbs) nəzərdə tutan qanunun qəbulu üçün Ermənistanda radikal-revanistlər tərəfindən başladılan təxribatçı imza toplama kampaniyası davam edir (50 min imza lazımdır ki, parlament məsələyə baxsın).

Aydındır ki, bu təşəbbüs Qarabağı Azərbaycanın ayrılmaz tərkib hissəsi sayan beynəlxalq birliyə və beynəlxalq hüquqa, özəlliklə ABŞ-a və onun sülh gündəliyinə meydan oxumaqdır. O ABŞ ki, onun İrəvandakı səfiri Katrina Kevin bugünlərdə bəyan edib ki, Qarabağdakı ermənilərin Azərbaycanın tərkibində təhlükəsiz yaşayacağına əmindir.

Deməli, ermənilər Qarabağda antiterror əməliyyatı aparmaq üçün Bakıya növbəti əsas verməklə məşğuldurlar. Olsun.

"Bəs niyə parlament müxalifəti "Qarabağı Azərbaycanın bir hissəsi kimi tanınmasını cinayət hesab edən" qanun layihəsini təqdim etmir? Cavab çox sadədir: belə bir layihənin qəbulundan sonra Azərbaycan dərhal Ermənistana və Qarabağa qarşı genişmiqyaslı hücuma başlayacaq. Nəticələri özünüz təsəvvür edin".

Bunu isə Ermənistanın hakim "Vətəndaş sazişi" partiyasından olan **deputat Gevorq Papoyan** öz Facebook səhifəsində yazıb.

**Papoyanın fikrincə, parlament müxalifəti yeni müharibənin məsuliyyətini özündən xalqın üzərinə atmağa çalışır.** "Müxalifətə isə çox sadə səbəbdən yeni müharibə lazımdır, yalnız bu halda böyük insan və ərazi itkiləri bahasına hakimiyyətə gələ biləcəklər, sadəcə olaraq, onların başqa variantları yoxdur. Ona görə də imzatoplama təşəbbüsünün yalnız bir siyasi nəticəsi var: bütün bunlar Azərbaycanın yeni hücumlar və müharibə üçün əl-qolunu açacaq.

P.S. Ümid edirəm ki, layihəyə imza atanlar və onların oğulları Azərbaycanın hücumu zamanı cəbhə bölgəsinə ilk gedərək vətəni müdafiə edəcək, müxtəlif bəhanələrlə təlimdən yayınmayacaqlar".

Necə deyərlər, əlavə şərhə lüzum qalmır.

❑ **Siyasət şöbəsi, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 115 (8251) 8 iyul 2023

**Məlum olduğu kimi, Ermənistan 2023-cü il mayın 12-də Laçın sərhəd-buraxılış məntəqəsinin qanunsuz olması ilə bağlı vəsatətlə məhkəməyə müraciət edib. BMT-nin Beynəlxalq Ədalət Məhkəməsi isə Azərbaycanın Ermənistanla sərhəddə Laçın sərhəd-buraxılış məntəqəsinin yaradılması ilə bağlı Ermənistanın vəsatətini rədd edib.**

# Ermənilərin "Laçın davası" nəticəsiz qaldı - İrəvanın daha bir fiaskosu

## Azərbaycan XİN Beynəlxalq Ədalət Məhkəməsinin qərarını alqışladı; "BMT-dəki uğurumuz bu ölkələrə zərbədir…"



"Ermənistanın Laçın sərhəd-keçid məntəqəsinin götürülməsi ilə bağlı tələbi əsassızdır".

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Beynəlxalq Ədalət Məhkəməsinin Azərbaycanın Ermənistanla sərhəddə Laçın sərhəd-buraxılış məntəqəsinin yaradılması ilə bağlı rəsmi İrəvanın vəsatətini rədd etməsinə dair bəyanatında bildirilib.

Qeyd olunub ki, iyulun 7-də Beynəlxalq Ədalət Məhkəməsi (BƏM) Ermənistanın 2023-cü il 12 may tarixli vəsatətini rədd edərək, Ermənistanın Azərbaycana qarşı işində məhkəmənin 22 fevral 2023-cü il tarixli qərarının ləğv edilməsinə dair Beynəlxalq Konvensiyanın tətbiqi ilə bağlı tələbindən imtina edib.

"Ermənistanın Laçın sərhəd-keçid məntəqisinin ləğvi ilə bağlı iddiaları əsassızdır. Biz Beynəlxalq Ədalət Məhkəməsinin Azərbaycanın öz sərhədlərinə nəzarət etmək hüququnu bir daha təsdiq edən qərarını alqışlayırıq və Ermənistanın keçid məntəqəsinin götürülməsi ilə bağlı tələbinin əsassız olduğunu bildiririk. Beləliklə, Ermənistan tərəfinin son qərarı yanlış şərh etməsi mənasız cəhddən başqa bir şey deyil", - nazirliyin bəyanatında vurğulanıb.

**Bildirilib ki, Azərbaycanın Laçın yolunun girişində sərhəd-keçid məntəqəsi yaratmaq qərarı ölkənin suveren hüquqlarına daxildir:** "Bu, ərazimizə qeyri-qanuni olaraq silah, hərbi texnika göndərilməsinin dayandırılması zərurətindən irəli gəlirdi. Bundan başqa, sərhəd-keçid məntəqəsi yaradılandan bəri etnik erməniəsilli yerli sakinlər Azərbaycanın daxili və beynəlxalq öhdəliklərinin tələb etdiyi kimi, heç bir ayrı-seçkilik olmadan məntəqədən keçirlər. Azərbaycan Beynəlxalq Ədalət Məhkəməsinin tələblərini və beynəlxalq hüquqi öhdəliklərini yerinə yetirməyə davam edir".

**Millət vəkili Sahib Alıyev** Musavat.com-a şərhində qeyd etdi ki, iddianın rədd edilməsi təkcə haylara deyil, Fransaya, İrana və Qarabağdakı separatçı ünsürlərdən proksi kimi faydalanan digər dövlətlərə də zərbədir.

**Onun fikrincə, belə bir qərar çıxarılacağını, burada da canfəşanlığının nəticəsiz qaldığını rəsmi Paris öncədən bilirdi:** "Buna görə də Fransanın xarici işlər naziri Katrin Kolonna dünən kiçiyi Ararat Mirzoyana zəng edib təsəlli verirdi. Öz ərazisində sərhəd-keçid məntəqəsi qurmaq hər bir dövlətin öz haqqıdır. Beynəlxalq Ədalət Məhkəməsinin də borcu bu haqqı təsbit etməkdir. Beynəlxalq məhkəmələr əksər hallarda bu və ya digər güclərin təsiri altında olduqlarını aşkar göstərirlər. Bir çox halda prosesə qərəzli yanaşırlar. Biz bunu Avropa İnsan Haqları Məhkəməsinin təcrübəsində daha tez-tez görürük. Qərarlara təsir etməyə çalışan ölkələrdən biri də Fransadır. Böyük güclərin təsiri altında qərəzli qərarlar verildiyini nəzərə alsaq, bunu Azərbaycanın uğuru kimi dəyərləndirmək olar. Fransa kimi dövlətlər çalışırdılar ki, iddia təsdiqlənsin. Fransanın Azərbaycan əleyhinə iki dəfə BMT-də, bir dəfə də Frankofoniya ölkələrinin zirvə görüşündə hazırladığı sənəd ləğv olundu".

**S.Alıyev hesab edir ki, kimin nə deməsindən və düşünməsindən asılı olmayaraq, Qarabağdakı qanunsuz silahlı birləşmələrin sonuna sayılı günlər qalır:** "Onlar texnika və silahlarını təhvil vermək şərti ilə rədd olub oradan getməsələr, zərərsizləşdiriləcəklər. Özünə hörmət edən heç bir dövlət icazəsi olmadan torpağında kiminsə ordusunun tör-töküntülərinin varlığı ilə barışa bilməz".

**Beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli bildirdi ki, Beynəlxalq Ədalət Məhkəməsinin qərarı beynəlxalq hüquqdan irəli gələn tələblərin icra olduğunun sübutudur. Ekspert xatırlatdı ki, bu günə qədər sülhməramlılar və Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən bölgəyə humanitar yüklərin daşınmasında məhdudiyyət olmayıb:** "BƏM BMT-nin əsas prinsipi olan ölkənin suverenliyinin, ərazi bütövlüyünün tanınması üzərində qiymətləndirmə həyata keçirir. Erməni əsilli vətəndaşların ayrı-seçkiliyə məruz qalma iddiası ona görə ləğv olundu ki, onlar Azərbaycan vətəndaşlarıdır. Bu qərar həm də Azərbaycanın daxili məsələsinə verilən qiymətdir. Beynəlxalq Ədalət Məhkəməsinin qərarı hüquqi əsasdan daha çox, ciddi siyasi uğuru özündə əks etdirir. Sözügedən qərar Ermənistanın beynəlxalq arenada hüquq üzərində başlatdığı bumun qarşısına sədd çəkmiş oldu. Ermənistanın məqsədi Qarabağ məsələsini beynəlxalq birliyin gündəminə çıxarmaqla qloballaşdırmaq, faktiki həllinin qarşısını almaq idi".

"Ermənistanın xəstə təfəkkürlü siyasi hakimiyyəti, eyni zamanda havadarları nə etdiklərinin fərqində deyillər. Müstəqil dövlətin sərhəd buraxılış məntəqəsi yaratması beynəlxalq hüquqa tam uyğun qərardır. Hətta vizasız gediş-gediş olan ölkələrin sərhədlərində belə bu məntəqələr var".

Bunu isə BƏM-in qıraı ilə bağlı **Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə** Musavat.com-a deyib.

**Onun sözlərinə görə, ədalətin qoruyucuları bəzən yanlış addımlar atırlar, bəzən tərəfkeşlik , bəzən də ikili siyasətə xidmət edirlər. Buna görə də məsələyə baxılana qədər müəyyən narahatlıq var idi:** "Beynəlxalq Ədalət Məhkəməsinin qəbul etdiyi qərarlar imperativ deyil, tövsiyəedici xarakterlidir. Əgər qərar rədd olunmasa idi, o zaman BƏM separatizmə xidmət etmiş olardı. Bu qərar ermənilərə dərs olmalıdır. Ermənistan bu kimi addımlar atmaqla beynəlxalq təşkilatlarda riyakar və yalançı olduğunu sübut edir, nüfuzdan düşür. Gələcəkdə BƏM bu kimi vəsatətləri qəbul etməkdən imtina edə bilər".

Xatırladaq ki, ötən ilin oktyabrında Beynəlxalq Ədalət Məhkəməsi "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyanın tətbiqi ilə bağlı müvəqqəti tədbirləri əsas gətirərək Ermənistanın 7 dekabr 2021-ci il tarixli məhkəmə qərarına dəyişiklik edilməsi barədə tələbini rədd etmişdi.

❑ **Nigar HƏSƏNLİ,**
**Musavat.com**

# "Niyə sülh müqaviləsi imzalanmır?-Paşinyanın deputatından özünəməxsus izahat




**"Danışıqlar zamanı bəzi məsələlər razılaşdırılıb, bəziləri isə razılaşdırılmamış qalıb".**

Musavat.com erməni mediasına istinadən xəbər verir ki, Ermənistan parlamentinin deputatı Gevorq Papoyan sülh sazişinin imzalanması ilə bağlı prosesi bu cümlə ilə təsvir edib.

"Niyə üç ay əvvəl sülh sazişi imzalanmayıb və ya indi imzalanmır? Çünki bizim üçün qırmızı xətt olan və ətrafında razılaşma olmayan məsələlər var. Məsələn, onlardan biri odur ki, Ermənistanın ərazisi 29800 kvadrat kilometrdir, bu dağdan, bu vadidən, bu çaydan keçir və s. İkincisi, Qarabağ ermənilərinin hüquqlarının müdafiəsi ilə bağlı konkret və aydın beynəlxalq mexanizmlər olmalıdır. Hazırda bununla bağlı razılaşma yoxdur. Amma bütün bunlar ətrafında söhbət gedirsə, heç olmasa, bu, müharibədən yaxşıdır", - deyə Papoyan bildirib.

**"Əgər Ermənistan artıq Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıyırsa, Bakı və Xankəndi başqa nəyi müzakirə edəcəklər?" sualına erməni deputat belə cavab verib:** "Təkcə Azərbaycan deyil, həm də Azərbaycana tərəfdaş ölkələrin Ermənistana qarşı ərazi ambisiyaları var. Ona görə də biz bir-birimizin ərazi bütövlüyünü tanıyanda heç olmasa 29800 kvadrat kilometr ərazimizin məsələsini həll etmiş oluruq. Əgər siz Azərbaycanın ərazi bütövlüyünü tanımırsınızsa, o da sizin ərazi bütövlüyünüzü tanımaz. Yoxsa yeni müharibə istəyirsiz?

Qarabağ məsələsinə gəlincə, indiki mərhələdə biz heç olmasa əmin olmalıyıq ki, orada insanlar Azərbaycanın təklif etdiyi şərtlərlə deyil, təhlükəsiz yaşasınlar. Üstəlik, Bakı və Xankəndi bütün bunları öz aralarında müzakirə etməlidirlər və o zaman Xankəndinin mövqeyi qat-qat güclü olacaq. Azərbaycan və Ermənistan beynəlxalq ictimaiyyətin gözündə Azərbaycan ərazisi hesab etdiyi məsələni müzakirə edir. Burada bizim mövqelərimiz xeyli zəifləyib".

# Ağ Ev Lavrovla gizli danışıqlar aparıldığını təsdiqləyib- Zaxarova inkar etmişdi



**ABŞ-ın keçmiş yüksək rütbəli məmurları Kreml rəsmiləri ilə Ukraynada müharibəyə son qoymaq qeyri-rəsmi təmaslar qurublar.**

Musavat.com xarici agentliklərə istinadən xəbər verir ki, bu barədə ABŞ Milli Təhlükəsizlik Şurasının nümayəndəsi Con Kirbi bildirib.

Eyni zamanda o, prezident administrasiyasının indiki əməkdaşlarından heç birinin bu müzakirələrdə iştirak etmədiyini vurğulayıb. Kirbi həmçinin Co Baydenin keçmiş vəzifəli şəxslərinin bununla apardığı diplomatik səyləri dəstəkləmədiyini söyləyib. Ağ Ev rəsmilərinin fikrincə, müharibənin dayandırılması ilə bağlı danışıqlar Ukraynanın iştirakı olmadan aparıla bilməz.

Xatırladaq ki, bundan əvvəl "NBC News" öz mənbələrinə istinadən ABŞ administrasiyasının keçmiş rəsmilərinin bu ilin aprel ayında Nyu-Yorkda Rusiyanın xarici işlər naziri Sergey Lavrovla görüşdüyünü xəbər edib. Onlara keçmiş ABŞ diplomatı və Xarici Əlaqələr Şurasının sədri Riçard Haass, həmçinin Ağ Evin iki sabiq müşaviri də qoşulub.

Telekanalın yaydığı məlumata əsasən, bu qrupun nümayəndələrindən ən azı biri Rusiyaya səfər edib. Kanal mənbələri iddia edir ki, Lavrovla görüşənlər sonradan bu barədə Ağ Evə məlumat veriblər.

"NBC News"un qeyri-rəsmi danışıqlardan xəbəri olan altı mənbəyə istinadən verdiyi məlumata görə, görüşlər müharibəyə son qoymaq üçün mümkün danışıqlar üçün zəmin yaratmaq məqsədi daşıyıb.

Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova "NBC News" məlumatını "saxta" və "dezinformasiya" adlandırıb.

YENİ MÜSAVAT
N 115 (8251) 8 iyul 2023

**"Rusiya iqtisadiyyatı sabitlik illüziyasına baxmayaraq, çökməyə doğru gedir. Ukraynaya qarşı bir günlük müharibə Rusiya büdcəsinə 1 milyard dollara başa gəlir". "Yeni Müsavat" xəbər verir ki, bu barədə ABŞ-da nəşr olunan həftəlik "Time" jurnalı yazıb.**

# Qərb nəşrindən SOS!: "Rusiya iqtisadiyyatı kollapsa gedir..." - Azərbaycana yan təsirləri

Nəşr təhlil materialında bildirir ki, Kreml işğalı maliyyələşdirmək üçün xammal ixracından milyardlarla vəsait toplayır, lakin Qərbin sanksiyalarından sonra Rusiya üçün enerji qiymətləri kəskin şəkildə aşağı düşüb və indi o, Asiya bazarına dərin endirimli neft tədarükü sayəsində çətinliklə ayaqda durur: "Bütün bunların fonunda Rusiya hakimiyyəti Ukraynada müharibəni davam etdirmək üçün "böyük" vergilər tətbiq edir və öz xalqını soyur. Bu cür addımlar Putini Rusiya cəmiyyətində qeyri-populyar edir və onun gücünü zəiflədir. Təəccüblü deyil ki, "Vaqner" özəl hərbi şirkətinin lideri Yevgeni Priqojinin təşkil etdiyi silahlı üsyana cəhd zamanı Rusiyanın nə əhalisi, nə də elitaları ölkə prezidentinin ətrafında birləşmədilər".

ABŞ nəşrinin təhlilindəki məqamlar Rusiya ilə qonşu olan, onunla sıx iqtisadi əməkdaşlıq şəraitində yaşayan bütün ölkələr üçün əhəmiyyətlidir. Bu baxımdan, kənd təsərrüfatı ixracımızın 90 faizə yaxınının reallaşdığı, idxalımızda birinci yerdə olan, milyonlarla vətəndaşımızın əmək miqrantı kimi çalışdığı Rusiyanın iqtisadiyyatında baş verənlər Azərbaycan üçün də önəmlidir.

Bu ilin birinci rübündə Rusiyanın ixracı dəyər ifadəsində ötən ilin eyni dövrü ilə müqayisədə 35 faiz azalıb. Bunun əsas səbəbi Rusiyanın başlıca ixrac məhsulu olan neft-qazın qiymətindəki azalmadır. Məlumdur ki, qaz qiymətləri ötən ilin eyni dövründən 2 dəfə ucuzlaşıb. Neftə gəlincə, ötən ilin dekabrında G7 ölkələri və Avropa İttifaqı Rusiya neftinə embarqo və qiymət tavanı təyin edib. Fevraldan isə eyni addımlar Rusiyanın neft məhsullarına qarşı da atılıb. Nəticədə yanvar-fevral aylarında Rusiyanın başlıca ixrac məhsulu olan Urals neftinin orta qiyməti 48 dollara düşüb.

Rusiya Maliyyə Nazirliyinin məlumatına əsasən, iyun ayında Rusiyanın əsas ixrac məhsulu olan Urals markalı neftin bir barelinin qiyməti 55,28 dollara bərabər olur. Bu, mayla müqayisədə 0,28 dollar artım deməkdir. İllik ifadədə isə Urals 1,58 dəfə dəyər itirib - keçən ilin iyununda orta qiymət 87,25 dollar olmuşdu. Altı aylıq aylıq orta qiymət isə 52,7 dollar olmaqla ötənilkindən 31,9 dollar aşağı düşüb.



Moskva ötən ilin dekabrında Qərbin tətbiq etdiyi 60 dollarlıq qiymət tavanından yuxarı satışa nail ola bilməsə də, ixrac həcmlərini artırmaqla azalan gəlirlərini kompensasiya etməyə can atır. Lakin bu, gəlirlərin azalmasını kompensasiya edə bilmir.

Belə ki, bu ilin birinci yarısında Rusiya büdcəsinin neft-qaz gəlirləri ötən ilin eyni dövrü ilə müqayisədə 47 faiz azalmaqla 3 trilyon 382 milyard rubl təşkil edib. Büdcə kəsiri isə altı ayda 2,6 trilyon rubla bərabər olub. Gəlirlərin azalması Rusiya hökumətini büdcənin "oksigen yastığı" sayılan Milli Rifah Fondu vəsaitlərini xərcləməyə vadar edir. Maliyyə Nazirliyinin məlumatına görə, iyun ayı ərzində fonddan dövlət büdcəsi kəsirinin maliyyələşməsi üçün 3,452 milyard yuan və 5,127 ton qızıl satılıb. Bundan əldə olunan 66 milyard 978,9 milyon rubl büdcəyə köçürülüb. May ayında isə bu məqsədlə fonda məxsus yuan və qızıl satışından 48 milyard 967,8 milyon rubl əldə edilmişdi.

İyunun 1-də MRF-nin 12 trilyon 353 milyard 126 milyon rubl (onda olan məzənnə ilə 153,099 milyard dollar) vəsaiti olub. Ay ərzində vəsaitlər 317,124 milyard rubl artsa da, rublun dəyərsizləşməsi nəticəsində dollar ifadəsində 7,5 milyard dollar azalıb.

Azalan büdcə gəlirlərini kompensasiya etmək üçün Rusiya hakimiyyəti iri şirkətlərdən birdəfəlik haqq almağa çalışır. Artıq 6 aydan çoxdur iri şirkətlərdən 2021-2022-ci illərin mənfəətindən birdəfəlik ödəmə şəklində vergi alınması üçün proses başladılıb. 360 milyard rubl təşkil edəcəyi gözlənilən və daha çox "müharibə haqqı" kimi qiymətləndirilən ödənişin alınması prosesini qanuni hala gətirəcək layihə artıq Dövlət Dumasında qəbul edilib.

Rusiyanın xarici ticarətindəki vəziyyəti Avropa İttifaqı ilə ticarətin timsalında aydın görmək olur. Belə ki, 2022-ci ildə Avropa İttifaqı ilə Rusiya arasında ticarət dövriyyəsi son 8 ildə ən yüksək həddə çataraq 258,6 milyard avro təşkil edib. Evurostatın məlumatına əsasən Rusiyadan Avropa İttifaqına məhsul ixracı 25 faiz artaraq 203,4 milyard avro olub. Rusiyanın Birlik ölkələrindən idxalı isə 38,1 faiz azalaraq 55,2 milyard avro təşkil edib. Bu, 2005-ci ildən bəri ən aşağı göstəricidir.

Bu ilin yanvar-aprel aylarında isə Rusiyanın Avropa İttifaqı ilə ticarəti keçən ilin eyni dövrü ilə müqayisədə 65,5 faiz azalmaqla 36,8 milyard avroya bərabər olub. Bu zaman Avropa İttifaqının Rusiyaya ixracı 32,4 faiz azalmaqla 14,4 milyard avroya, Rusiyanın, əksinə, ixracı isə 73,7 faiz azalmaqla 22,4 milyard avroya düşüb.

Rusiya hakimiyyəti, prezident Vladimir Putin iqtisadiyyatda vəziyyətin yaxşı olduğu görüntüsü yaratmağa çalışsa da, buna cəmiyyəti inandırmaq getdikcə daha çətin olur. İyunun 23-24-də baş verən "Vaqner" qiyamından sonra Rusiya cəmiyyətində pessimizm sürətlə artır. İyunun 24-dən etibarən Rusiya milli valyutasının bütün valyutalar qarşısında kəskin dəyərsizləşməsi prosesi gedir. Artıq 1 dollar 92 rubla, 1 avro isə 100,5 rubla mübadilə olunur. Qiyam və ondan sonrakı günlərdə ekspertlərin müvəqqəti hal kimi qiymətləndirdikləri proses dayanmır, rubl hər gün dəyər itirir.

"Bloomberg" Agentliyi bildirir ki, rublun dəyərsizləşməsi Rusiya hökumətinin məqsədyönlü siyasətidir. Agentliyin mənbələrinin dediyinə görə, rublun dəyərsizləşməsi büdcə kəsirini azaltmaq üçün hökumətə güclü dəstəkdir. Belə ki, may ayında Rusiyanın xarici bazarlarda satdığı məhsullardan əldə etdiyi xarici valyutanın - dollar və avronun 80 faizdən çoxu daxili bazarda satışa yönəldilib. Bu barədə qanun ötən il qəbul edilib: özəl şirkətlər də əldə etdikləri valyutanın 80 faizini daxili bazarda satışa yönəltməlidilər. Bu isə o deməkdir ki, daxildə artan valyuta tələbini qarşılamaq üçün ehtiyatlar çox azdır. Digər tərəfdən, keçən il minimuma düşən idxal getdikcə artır. Sanksiyalara qədər ölkədə toplanmış məhsul və hissələrin ehtiyatları tükənib. Həm ev təsərrüfatlarının, həm də biznesin idxala ehtiyacı kəskin artıb. İdxal ehtiyacı ilə yanaşı, alınan məhsulların dəyəri də bahalaşıb: Qərb özünün demək olar ki, bütün növ texnoloji məhsullarının Rusiyaya ixracına qadağa qoyub. Hökumət idxal tələbinin qarşılanması üçün malların ikili idxalına rəsmən icazə verib. Lakin ikili idxal həm də malların bahalaşması deməkdir: arada vasitəçilik edən xarici şirkətlər də qazanc götürməlidilər. Digər tərəfdən, həm Avropa İttifaqı, həm də ABŞ Rusiyaya qadağan olunan məhsulların ikili idxalına qarşı mübarizəni sərtləşdirir, bu prosesdə iştirak edək şirkətləri ciddi cəzalandırırlar. Bu da əlavə risklər olaraq idxal edilən məhsulların qiymətinə oturur. Beləliklə, artan idxalın dəyərini ödəmək üçün biznes və ev təsərrüfatlarına getdikcə daha çox valyuta tələb olunur və bu tələbin ilin sonunadək artmağa davam edəcəyi şəksizdir.

Rusiyanın öz neftini bu ilin 6 ayında əsasən Çin, Hindistana satdığını, dəyərinin isə əsasən yuan və rupi ilə ödəndiyini nəzərə alsaq, aydın olar ki, ölkəyə dollar-avro ikilisinin idxal həcmi yaranan tələbin yarısını belə qarşılamaq imkanında deyil. Belə şəraitdə Maliyyə Nazirliyinin iyul ayında büdcə kəsirini bağlamaq üçün xarici valyuta satışını azaltmaq qərarı rublun dəyərsizləşməsi prosesini sürətləndirən əsas amillərdən biri kimi qiymətləndirilir.

Belə bir şəraitdə Rusiya hökumətinin rublu məqsədyönlü şəkildə dəyərsizləşdirməsi inandırıcı görünmür. Çünki "Vaqner" qiyamının siyasi hakimiyyətə yaratdığı inamsızlıq aradan qaldırılmadan rublun ucuzlaşdırılması iqtisadiyyatda böyük panikanın yaradılması deməkdir. Hansı ki, belə panika iqtisadiyyatın əsaslarını sarsıda, makroiqtisadi sabitliyi pozaraq güclü böhran doğura bilər. Dollar və avroda olan ehtiyatlarının yarıdan çoxu Qərb tərəfindən dondurulan Rusiya hökumətinin əlində rublu kəskin dəyərsizləşmədən qoruyacaq qədər xarici valyuta yoxdur.

Bir sıra ekspertlər rublun dəyərsizləşməsini "Vaqner" qiyamından sonra hakimiyyətə bağlı varlı elitanın kapitalını ölkədən çıxarması ilə izah edirlər. Bildirilir ki, varlı elita getdikcə öz vəsaitlərinin Rusiyada batmasındansa, Qərbdəki hesablarda dondurulmasını daha üstün saymağa başlayır. Onlar Putin hakimiyyətinin qiyam qarşısında aciz qalmasından sonra vəsaitlərinin mümkün qədər çox hissəsini xaricə daşımağa başlayıblar. Bu da ölkədə xarici valyuta tələbini kəskin artırıb.

Rusiya rublunun dəyərsizləşməsi oradan idxalımıza görə Azərbaycana sərf etsə də, aqrar ixracatçıların mənafeyi baxımından zərərli prosesdir. Bundan əlavə, Rusiyada iqtisadi böhranın yaranması bu ölkədə əmək miqrantı kimi çalışan yüz minlərlə həmvətənimiz üçün ciddi problem deməkdir. Onların gəlirlərinin azalması Azərbaycana pul göndərişlərinin azalmasına, yüz minlərlə soydaşımızın geri qayıtmasına gətirib çıxara bilər.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

# Azərbaycanda sahìbkarlıq sahəsìndə yoxlama aparan yoxlayıcıların hüquqları və vəzìfələrì müəyyənləşìb

**Prezident İlham Əliyev “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun təsdiqləyib.**



“Report” xəbər verir ki, dəyişikliyə əsasən, Azərbaycanda sahibkarlıq sahəsində yoxlama aparan yoxlayıcıların hüquqları və vəzifələri müəyyənləşib.

Belə ki, yoxlama zamanı yoxlayıcının aşağıdakı hüquqları var:

- yoxlama obyektinin yerləşdiyi yerə maneəsiz daxil olmaq;

- yoxlama sualları ilə bağlı məlumatların, sertifikat, lisenziya, icazə və sahibkarlıq fəaliyyəti ilə bağlı digər hüquqmüəyyənedici sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsini sahibkarın razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) və ya sahibkardan əldə etmək;

- yoxlama aktına əlavə edilməsi üçün yoxlama obyektinə aid olan sənədlərin və digər növ informasiya daşıyıcılarının surətlərini kağız və ya elektron informasiya daşıyıcılarında almaq, habelə yoxlama obyektinə dair məlumat olan müvafiq informasiya sisteminə daxil olmaq;

- foto, audio və video çəkiliş aparmaq.

Yoxlayıcı bu hüquqlardan yalnız səlahiyyəti çərçivəsində və müvafiq yoxlama suallarına uyğun istifadə etməlidir.

**Eyni zamanda yoxlayıcının vəzifələri də müəyyənləşib. Bunlar aşağıdakılardır:**

- yoxlamaları qanunun tələblərinə əməl etməklə sahibkarların hüquq və qanuni mənafelərinə uyğun həyata keçirmək;

- sahibkara öz hüquq və vəzifələri barədə məlumat vermək;

- yoxlama zamanı istifadə olunacaq və yoxlamanın hüquqi əsasını təşkil edən bütün hüquqi aktlardan, habelə yoxlayıcı orqanın (yoxlayıcının) qərarlarından çıxarışları sahibkara təqdim etmək və sahibkarlara məsləhətlərin və izahatların verilməsini təmin etmək;

- yoxlamanı tam, vaxtında, obyektiv və qərəzsiz həyata keçirmək, sahibkarın müəyyən edilmiş iş rejiminə və fəaliyyətinə mane olmamaq;

- bu qanunda müəyyən edilən hallar istisna olmaqla, sahibkara məxsus əşyaların və sənədlərin bütövlüyünü təmin etmək;

- yoxlama başlamazdan əvvəl xidməti vəsiqəsini (şəxsiyyət vəsiqəsi ilə birlikdə), yoxlamanın aparılması haqqında qərarın surətini və yoxlamanın yoxlamaların vahid məlumat reyestrində qeydiyyata alınması barədə çıxarışı sahibkara və ya onun səlahiyyətli nümayəndəsinə təqdim etmək, sahibkarın (onun səlahiyyətli nümayəndəsinin) yoxlamada iştirakına mane olmamaq, yoxlamanın hüquqi əsasları, predmeti, müddəti, yoxlama zamanı tərəflərin hüquq və vəzifələri haqqında məlumat vermək və sahibkara (onun səlahiyyətli nümayəndəsinə) bu sənədlərlə tanış olmaq imkanı yaratmaq;

- yoxlamanın həyata keçirilməsi prosesində tanış olduğu məlumatlar (sənədlər) barəsində bu Qanunun tələblərinə riayət etmək;

- yoxlama aktına sahibkarın, onun səlahiyyətli nümayəndəsinin və ya onun işçilərinin təqdim etdikləri hər hansı sənədi və ya onların nüsxələrini, yazılı izahatları əlavə etmək;

- yoxlama aktını tərtib etmək və bir nüsxəsini sahibkara təqdim etmək;

- müvafiq bildirişləri və məlumatları (sənədləri) sifarişli poçt göndərişi vasitəsilə sahibkarın qeydiyyat ünvanına, sahibkar tərəfindən elektron poçt və ya digər poçt ünvanı təqdim edildikdə isə həmin ünvana göndərmək;

- yoxlama müddətində sonradan sübut edilməsi mümkün olmayan və ya yoxlamanın icrasına mane olan hər hansı fakt (reyestrə daxil edilmiş hüquqi ünvanda sahibkarın və ya onun nümayəndəsinin olmaması, yoxlamanın keçirildiyi yerə girişə məhdudiyyət, tələb olunan sənədləri təqdim etməkdən imtina və s.) barədə qeydi yoxlama aktına daxil etmək və sahibkarın və ya onun nümayəndəsinin iştirakı ilə, onlar imtina etdikdə və ya onların iştirakı mümkün olmadıqda, müvafiq qeyd etməklə rəsmiləşdirmək.

**Yoxlama zamanı yoxlayıcıya aşağıdakıları etmək qadağandır:**

- səlahiyyətinə, sahibkara və yoxlama suallarına aidiyyəti olmayan məlumatları (sənədləri) tələb etmək və yoxlamaq;

- qanunla digər yoxlayıcıların nəzarət sahəsinə aid olan və ya yoxlama suallarının siyahısında nəzərdə tutulmamış məsələləri yoxlamaq;

- Qanunda göstərilən hallar istisna olmaqla, sahibkarın razılığı olmadan onun resurslarını (daşınmaz əmlakını, nəqliyyat vasitələrini, kompüterlərini, surətçıxarma avadanlığını, dəftərxana ləvazimatını və s.) istifadə etmək;

- sahibkardan yoxlayıcı orqanlara əvvəllər təqdim edilmiş məlumatları (sənədləri) tələb etmək.

# 1 general, 22 polkovnik, 38 polkovnik-leytenant, 14 mayor... - komissarlıqlar birləşdirilir

**Xəbər verdiyimiz kimi, Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Laçın, Xaçmaz və Cəlilabad şöbələrində də əməliyyat keçirib. Nəticədə Xaçmaz rayon şöbəsinin rəisi, polkovnik-leytenant Ağayev Rahim Əlifağa oğlu, Laçın hərbi komissarlığının müfəttişi Rəşad Rəşidli və Cəlilabad rayon hərbi komissarlığının müfəttişi Ramil Həsənov qanunsuz əməlləri ifşa olunduğuna görə həbs ediliblər.**




Qaynarinfo sözügedən məsələnin gündəmdə olmasını nəzərə alaraq, Azərbaycanda hərbi komissarların siyahısını hazırlayıb.

Məlum olub ki, bir general-mayor, 22 polkovnik, 38 polkovnik-leytenant (biri həbs edilib), 14 mayor Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon və şəhər şöbələrinə rəhbərlik edir.

Əldə etdiyimiz məlumata görə, yaxın vaxtlarda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbələri birləşdiriləcək və regional şöbələr yaradılacaq. Bununla da hərbi komissarların sayı kəskin azalacaq.

# Bu məhsulların idxalına qadağa qoyulacaq - AQTA

AQTA
AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

**Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi (AQTA) İranda fəaliyyət göstərən, təsdiqdən keçməyən qida obyektlərindən məhsul idxalına məhdudiyyət qoyulacağı ilə bağlı xəbərdarlıq edib.**

Bu barədə Musavat.com-a AQTA-dan məlumat verilib.

Bildirilib ki, “Qida Təhlükəsizliyi haqqında” Qanunun 20.3, 24.5 və 24.8-ci maddələrinin tələblərinə əsasən, risk dərəcəsi nəzərə alınmaqla ölkəmizə qida və yem məhsullarının idxalı zamanı həmin məhsulların istehsal və emal edildiyi qida obyektləri təsdiq edilməlidir. Xarici ölkələrdə fəaliyyət göstərən qida obyektinin təsdiq olunması üçün obyektin Azərbaycan Respublikasında qida təhlükəsizliyi sahəsində mövcud olan tələblərə uyğunluğu agentlik tərəfindən yerində qiymətləndirilmə aparılmaqla və ya vizualizasiya yolu ilə qiymətləndirilir. Qiymətləndirilmə nəticələrinə əsasən, obyektin təsdiq edilməsi, şərti təsdiq edilməsi və ya təsdiqdən imtina edilməsi barədə qərar qəbul edilir.

Bununla əlaqədar, İran İslam Respublikasının səlahiyyətli dövlət qurumuna bu ölkədə fəaliyyət göstərən qida obyektləri agentlik tərəfindən təsdiq edilmədiyi halda, 2023-cü il sentyabrın 1-dən balıq və balıq məhsullarının, süd və süd məhsullarının istehsalı ilə məşğul olan, təsdiq edilməyən qida obyektləri tərəfindən məhsulların idxalına məhdudiyyətin tətbiq olunacağı barədə rəsmi məktub ünvanlanıb.

AQTA bir daha ölkəmizə qida məhsullarının idxalı ilə məşğul olan sahibkarlara xəbərdarlıq edərək bildirir ki, müvafiq qanunvericiliyin tələbinə əsasən, təsdiq üçün müraciət etməyən şirkətlərin xüsusi risk qrupuna daxil olan baytarlıq nəzarətinə aid qida məhsullarını idxal etməsi mümkün olmayacaqdır. Bu sıraya mal və mal əti, quş və quş əti, balıq və dəniz məhsulları, konservləşdirilmiş balıq və dəniz məhsulları, süd və süd məhsulları və heyvan yemi üçün istifadə edilən digər məhsullar aiddir. Agentlik növbəti dəfə qida məhsullarının idxalı sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinə müraciət edərək, onları “Qida təhlükəsizliyi haqqında” qanunun tələblərinə ciddi şəkildə riayət etməyə çağırır. Sahibkarlar qanunvericiliyin tələbləri ilə Agentliyin veb-saytı, həmçinin sosial media səhifələrindən tanış ola, sualları yarandığı təqdirdə “1003-Çağrı Mərkəzi” ilə əlaqə saxlaya bilərlər.

# Rus müğənniləri hər yerdən qovurlar


Qriqori Lepsin

**Rusiyalı müğənni Qriqori Lepsin Qırğızıstanın Çolpon-Ata şəhərində keçirilməsi planlaşdırılan konserti ləğv edilib.**

Musavat.com xəbər verir ki, bu barədə Azattık Radiosu məlumat yayıb.

Bununla bağlı informasiyanı tədbirin təşkilatçıları da təsdiqləyiblər. Onların sözlərinə görə, bu qərar şəhər sakinlərinin narazılığı səbəbindən verilib.

Qırğızıstan mətbuatı Lepsin ölkəyə özəl dəvət edildiyini bildirir. Daha əvvəl müğənninin Qazaxıstan və Özbəkistandakı konsertləri də ləğv edilmişdi.

Orta Asiyada Leps konsertlərinin ləğv edilməsindən əvvəl sosial şəbəkələrdə geniş müzakirələr gedir. Bir çox istifadəçilər Rusiyanın Ukraynaya qarşı müharibəsini dəstəkləyən sənətçinin gəlişindən narazılıqlarını bildirirlər.

Xatırladaq ki, Qriqori Leps və müğənni Nikolay Baskov Ukrayna Silahlı Qüvvələrinin tanklarını məhv edən hər kəsə bir milyon rubl mükafat vəd ediblər. Onların bu elanı Orta Asiya sakinlərinin xüsusi qəzəbinə səbəb olub. Rusiyanın Ukraynaya təcavüzündən sonra rus sənətçiləri konsert verə biləcəkləri bazar payını itiriblər. Xüsusilə açıq şəkildə müharibəyə dəstək verən artistlər getdikləri xarici ölkələrdə boykot edilir.

YENİ MÜSAVAT
N 115 (8251) 8 iyul 2023

# ÜST rəhbəri yenə dünyanı qorxutdu - yeni ölümcül virus uzaqda deyil, bu payız...

## Adil Qeybulla: "Hər cür sürprizlərə hazır olmalıyıq, çünki... " Zülfüqar Yusifov: "COVİD-19 pandemiyasından sonra dünya olduqca kövrək bir nöqtəyə gəlib"




**"May ayında COVİD-19-la bağlı qlobal fövqəladə vəziyyətin sona çatması haqda elan ondan daha ölümcül patogenin təhlükəsinin aradan qalxması demək deyil. Daha ölümcül potensiala malik başqa bir patogenin təhlükəsi qalmaqdadır".**

Bu narahatedici açıqlamanı Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Qebreyesus fəxri doktor adına layiq görüldüyü Portuqaliyanın Koimbra Universitetində çıxışı zamanı edib.

O, bəşəriyyətin "bu çətin dövrdə elmi və ictimai sağlamlığı müdafiə edənlərə çox şey borclu olduğunu" xatırladaraq, "pandemiya illərinin dərslərini öyrənməyə" çağırıb. Baş direktor həmçinin deyib ki, dünya yeni pandemiyalara hazırlaşmalıdır.

Onun sözlərinə görə, bu, pandemiyaya hazırlıq və cavab tədbirləri yeni beynəlxalq saziş əsasında hazırlana bilər. Qebreyesus "dünyanı gələcək nəsillər üçün daha təhlükəsiz yerə çevirəcək" bir razılaşmanın əldə olunacağına əminliyini ifadə edib.

Xatırladaq ki, 2019-cu ildə Çinin Vuhan şəhərində yarasadan insana keçdiyi güman edilən COVİD-19 epidemiyası bütün dünyaya təsir etdi. Virus təxminən 7 milyon insanın həyatını məhv etdi və bir çox fəsadlara səbəb oldu.

Ardıcıl icra edilən vaksinasiya tədbirləri nəticəsində koronavirusa yoluxma 2023-cü ildə minimum saya düşdü. Bu baxımdan ÜST COVİD-19 virusundan pandemiya statusunu ləğv etdi. Bütün bunlara baxmayaraq, alimlər Çində iki yeni virus aşkar ediblər. Belə ki, CD35 və CD36 adlanan yeni viruslar 2021-ci ilin mart-aprel ayları arasında Çinin cənubundakı mağaralarda tutulan 112 yarasanın nümunələrində aşkar edilib. Bu barədə "Daily Mirror" nəşri məlumat yayıb.

Yayılan xəbərə görə, yeni viruslar koronavirusun mutasiyaya uğramış növüdür və araşdırmaya görə, ən az onun qədər yoluxucu xarakterə malikdir. Alimlər bildirirlər ki, hələ ki bu virusların insana yoluxma qabiliyyəti sübut olunmayıb.

Bəs ÜST rəhbərinin xəbərdarlıq elədiyi yeni ölümcül virus özünü nə vaxt göstərə bilər - qarşıdakı payızda, yoxsa qışda? Və yeni pandemiyaya qarşı beynəlxalq saziş deyərkən nə nəzərdə tutulur?

**Mövzu ilə bağlı tibb elmləri doktoru, professor Adil Qeybulla "Yeni Müsavat"a danışdı:** "Koronavirus pandemiyasının qəfildən baş verməsi onu göstərdi ki, pandemiya bizim iradəmizdən asılı olmayan bir prosesdir və bu proses hər an baş verə bilər, bu elmi proqnozdur. Ümumdünya Səhiyyə Təşkilatının insan sağlamlığını təhdid edən 10 faktorundan biri bizi qarşıda gözləyən qrip pandemiyasıdır. Çünki qrip də RNT daşıyıcısı olan virusdur, daim mutasiyaya məruz qalır. Onun nə vaxtsa elə bir mutagen forması ortaya çıxacaq ki, o, pandemiya törədəcək - İspan qripində olduğu kimi. Yəni bu elmi bir proqnozdur, amma nə zaman baş verəcək, onu demək mümkün deyil. Ona görə də biz pandemiyalara hazır olmalıyıq ki, bizi qəfil yaxalamasın. Mümkün qədər bu işin vaxtında lokallaşdırılması, imkanların səfərbər edilməsi, ölkələr arasında assosiativ əlaqələrin yaradılması və lazımi tədbirlərin zamanında görülməsi lazımdır. ÜST də bununla bağlı məsuliyyət daşıyır. Beləliklə, hər hansı pandemiya qorxusu, epidemiyalar baş veribsə, dərhal lokallaşdırılmalıdır. Bu baxımdan biz hər cür sürprizlərə hazır olmalıyıq".

**Bakıdakı "Ankara" klinikasının baş həkimi Zülfüqar Yusifov isə bildirdi ki, dünyada dövlətlər arası pandemiya sazişi dedikdə əsasən bütün dövlətlərin pandemiya ilə bağlı apardığı profilaktik, qoruyucu tədbirlərin müəyyən səviyyəsi olması nəzərdə tutulur:** "Bu onun üçündür ki, hansısa pandemiya müxtəlif ölkələrdə baş qaldırmasın. Məlum olduğu kimi, hansısa dövlətlərdə baş qaldıran pandemiya sərhəd tanımadan gec-tez digər ölkələrə də keçir. Bu baxımdan dövlətlər öz əhalisinə, tibb müəssisələrinə ümumi təhlükəsizlik standartlarını aşılamalıdır.

O ki qaldı növbəti pandemiyanın başlamasına, əlbəttə ki, hansısa pandemiya baş veribsə, onun cüzi də olsa müəyyən ştamları qala bilir və həmin ştamlar bəzən bizim tərəfimizdən yaradılan əlverişli şəraiti tapan kimi yenidən baş qaldırır. Əlverişli şərait dedikdə bura aiddir dezinfeksiya, gigiyena tədbirlərinə əməl olunmaması, immun sisteminin hansısa səbəbdən aşağı düşməsi, hava-iqlim şəraitinin pisləşməsi, digər qoruyucu tədbirlərdən istifadənin yetərli olmaması və yaxud pasientlərin qoruma tədbirlərinə yetərincə əməl etməməsi. Bunlar olduqda əlbəttə ki, pandemiyanın baş qaldırmasının ilkin qığılcımları ortaya çıxa bilər və bunun vaxtında qarşısı alınmaza, profilaktik tədbirlər görülməzsə, dünyanı bürüyən, şahidi olduğumuz COVİD-19 kimi fəlakətlərə gətirib çıxara bilər. Ümumiyyətlə isə COVİD-19 pandemiyasından sonra dünya olduqca kövrək bir yerə gəlib çıxıb və bu tipli pandemiyaların başlaması üçün müəyyən əsasların olduğunu ehtimal etmək olar".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

# Eks-deputatın hotelində gizli qumar təşkil olunur - sensasion iddia

## Hacı Salayev biznesini xaricə daşımaqdadır; özü və ailəsi də artıq ölkədə yaşamır...



**2020-ci ildə Azərbaycandan xaricə 1,1 milyard manat ekvivalentində qanunsuz vəsait çıxarılması baş verib. Bunu Hesablama Palatası aşkarlayıb. Palatanın 2020-ci ildəki fəaliyyətinə dair hesabatından aydın olur ki, auditlə əhatə olunan dövrdə 7 rezident bank tərəfindən ümumilikdə ölkə ərazisindən kənara "müxbir hesaba göndəriş" adı altında manat ekvivalentində 1,1 milyard manat dəyərində xarici valyuta vəsaitləri (əsasən ABŞ dolları və avro ilə olan pul banknotları) ixrac olunub.**

Musavat.com Minval.info-ya istinadən xəbər verir ki, bu hesabatın yayılmasından 3 il ötüb və vəziyyət dəyişməyib.

Azərbaycanda vəzifə tutub, cibində mandat gəzdirməklə böyük varidat sahibinə çevrilənlər az deyil. Əksəriyyəti də vəzifədə olduqları müddətdə ölkədə qamarladıqları var-dövləti xaricə daşıyır, günlərin birində isə sakitcə aradan çıxır. İtirən Azərbaycan, ölkə insanı, qazanan isə xaricdə onun hesabına kef çəkənlər olur. 2 dönəm deputat olan Hacı Salayev də belə vəzifə sahiblərindəndir. 2010-2015-ci illərdə Milli Məclisin deputatı olub. Bu müddətdə Hacı Salayev böyük biznes qurmaq imkanı qazanıb. Bu gün isə Hacı Salayev biznesini xaricə daşımaqdadır. Özü və ailəsi də artıq ölkədə yaşamır.

O, oğlu Kənan Salayev üzərindən İstanbulun Beşiktaş səmtində fəaliyyət göstərən "Alliance Capital İnşaat Telekommunikasion Sanayi ve Ticaret Limited" şirkətinə sahibdir. Şirkət 2012-ci ilin iyunun 16-da İstanbul Ticaret Odasında 500 min TL nizamnamə kapitalı ilə qeydiyyatdan keçirib. Sərmayənin 475 min lirəsi Kənan Salayevə, qalan 25 min lirəsi ortağı Mustafa Cevleyan adlı iş adamına aiddir. Şirkəti Mustafa Cevleyan idarə edir. Şirkət yaşayış binaları, iş və ticarət mərkəzlərinin tikintisi və satışı ilə məşğul olur. Şirkət İstanbulun Beşiktaş səmtində, Akat Məhəlləsində Ebulula Mardin küçəsi Mermerler St. D.Bl. N. 8/3 ünvanında yerləşir.

Deputatın digər oğlu Turqut Salayev də 2017-ci ilin 24 avqustundan İstanbulda şirkət sahibidir. Onun İstanbul Ticaret Odasında 50 min TL nizamnamə kapitalı ilə qeydiyyatdan keçirdiyi Teks Group İnşaat Sanayi Ve Ticaret Anonim Şirkəti də tikinti sahəsində fəaliyyət göstərir, ofisi Göktürk Merkez Mh.Panayır Çayırı Cd.N.4 A5/1 Eyüp ünvanında yerləşir. Hacı Salayev əvvəllər Azərbaycan Respublikası Prezidenti yanında Xüsusi İdarədə, Hərbi Əks-Kəşfiyyat Xidmətində və Milli Təhlükəsizlik Nazirliyində çalışıb, ehtiyatda olan polkovnikdir. 2002-ci ilin noyabr ayından 2005-ci ilin mart ayınadək "TRUST" Mühafizə Şirkətinin Baş direktoru vəzifəsində işləyib. 2005-ci ilin avqust ayından 2006-cı ilin mart ayınadək Azərbaycan Respublikası Dövlət Neft Şirkəti Prezidentinin Təhlükəsizlik məsələləri üzrə müşaviri və Təhlükəsizlik Departamentinin rəisi vəzifəsində işləyib. 2010-cu ildə IV Çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olub.

2011-2015-ci illərdə Müstəqil Dövlətlər Birliyi Parlament Assambleyasının Hüquq Məsələləri Daimi Komissiyasının sədr müavini olub. 2015-ci ildə yenidən Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilib. Milli Məclisin Müdafiə, Təhlükəsizlik və Korrupsiya ilə Mübarizə Komitəsinin üzvü olub. Mətbuatın yazdığına görə, qalmaqallı keçmişi olub. Onun Azərbaycanda çörək zavod, tikinti məhsullarının istehsal və satışını həyata keçirən şirkətləri, adı gizli qumar oyunlarının keçirilən məkan kimi hallanan "Lake Palace" hoteli də var.

2021-ci ildə belə məlumat da yayılmışdı ki, Hacı Salayevin oğlu Kənan Salayevin atasına məxsus "Lake Palace" hotelində ölkənin elit dairələrinə aid olan məmurların övladları üçün qumar masası yaradıb. İddia olunurdu ki, Kənan Salayevin yaxın dostu Ayaz "Lake Palace"də sabiq nəqliyyat naziri Ziya Məmmədovun qardaşı oğlu Aynar Məmmədova böyük məbləğdə pul uduzub. "Lake Palace" hotelində ayrı-ayrı nömrələrdə gecə saatlarında qumar masası təşkil edilir. Bildirilirdi ki, hoteldə qumar oynamağa gələn gənclər bir qayda olaraq ölkənin tanınmış məmurlarının övladları olur. Kənan Salayevin uşaqlıq dostu, sinif yoldaşı Ayaz adlı şəxsin həm də "Lake Palace" hotelindəki qumar masalarını idarə edən biri olduğu deyilirdi. O illərdə həmçinin Hacı Salayevin "Xəzər" çörək zavodu da Ayazın idarəsində idi. Ölkə qanunvericiliyinin dövlət məmurlarına, Milli Məclisin deputatlarına sahibkarlıq fəaliyyəti ilə məşğul olmağı qəti qadağan etməsinə baxmayaraq, Hacı Salayev deputat olduğu dönəmdə özünü qanunların əhatə dairəsindən kənar hesab edənlərdən idi.

10 il cibində mandat gəzdirsə də, Hacı Salayevi parlament trubunasından çıxış edən görən olmadı. Mətbuat nümayəndələri lal deputatların siyahısını hazırlayarkən, buna görə onun adını siyahının lap əvvəlindən qeyd edirdilər. Susumaqla öz biznesini genişləndirən Hacı Salayev elə susqun şəkildə də ölkədən qaçır. Özü ilə milyonları xaricə daşıyıb aparmaqdadır. Hüquq-mühafizə orqanlarının bundan xəbəri yoxdur? Bilmirlər ki, dövlət büdcəsini, Azərbaycan xalqına çatacaq milyonları kimlər necə oğurlayıb xaricə daşıyır?

YENİ MÜSAVAT
N 115 (8250) 8 iyul 2023

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması**

# “Ailə məsələsində kişilərimiz hələ də köhnə adət-ənənələrə köklənib”

## Əhməd Qəşəmoğlu: “Ölkədə ailə institutu ilə bağlı vəziyyət bərbaddır…”

**Sosial Tədqiqatlar Mərkəzi (STM) yenidən çox maraqlı bir sorğu keçirib. Belə ki, qurumun keçirdiyi rəy sorğularında respondentlərə qadınlara aid üç fikirdən hansı ilə daha çox razılaşdıqları soruşulub. Onlar qadınların əsas işi ailə və uşaqlara baxmaq, qadınlar iş həyatında və ictimai həyatda iştirak etməlidir, qadınlar həm iş həyatı, həm də ailə həyatında fəal olmalıdır olmaqla qruplaşdırılıb.**

Sorğu könüllü iştirak əsasında 18 yaşından yuxarı 384 respondent arasında keçirilib və anonimlik tam qorunub. 12 iqtisadi rayon əhatə olunub. Sorğunun seçmə çərçivəsi ölkə üzrə əhali sayının paylanmasına proporsional müəyyən edilib və gender balansı qorunub. Nəticələrin əminlik intervalı 95 faiz, xəta payı 5 faizə bərabərdir.

Rəyi soruşulanların 14,3 faizi qadınların əsas işinin ailə və uşaqlara baxmaq olduğunu, 4,6 faizi qadınların iş həyatında və ictimai həyatda iştirak etməli olduqlarını, 79,7 faizi isə onların həm iş həyatı, həm də ailə həyatında fəal olmalı olduqlarını qeyd ediblər.

Verilən cavablarda ciddi gender fərqləri üzə çıxıb. Belə ki, qadınların əsas işinin ailə və uşaqlara baxmaq olduğunu düşünənlər kişilər arasında 20,7 faiz, qadınları arasında isə 8,1 faizdir. Onların həm iş, həm də ailə həyatında fəallığının vacibliyini vurğulayanlar isə əksinə, qadınlar arasında daha çoxdur. Qadınların 88,2 faizi, kişilərin isə 71,2 faizi bu fikirlə razılaşıb.

Respondentlərin təhsil səviyyəsinin cavablara təsiri aydın şəkildə özünü büruzə verib. Belə ki, qadınların həm iş, həm də ailə həyatında fəallığının vacibliyi fikri ilə, orta təhsillilərin 73,4%-i, texniki-peşə təhsillilərin 85,2 faizi, ali təhsilli respondentlərin isə 93,7 faizi razılaşıb. Qadınların əsas işinin ailə və uşaqlara baxmaq olması fikri ilə razılaşanların təhsil bölgüsündə isə əks tendensiyanı izləmək olar. Orta təhsillilərin 20,2 faizi, texniki-peşə təhsillilərin 7,4 faiz, ali təhsillilərin isə 4,2 faizi bu fikirlə razılaşıb.

Məşğuliyyət bölgüsündə diqqət çəkən məqam qadınların hər iki sahədə fəallığının vacibliyi fikri ilə daha çox iki qrupun - dövlət sektorunda işləyənlərin (84,3 faiz) və evdar qadınların (85,7 faiz) razılaşmasıdır.



Başqa sözlə, evdar qadınların əksəriyyətinin yalnız özəl sahədə fəallıq göstərmələrinə birmənalı yanaşmadığını güman etmək olar. Qadınların əsas işinin ailə və uşaqlara baxmaq olması fikri ilə razılaşanlar daha çox fərdi əmək fəaliyyəti (26,3 faiz) ilə məşğul olanlar, həmçinin işsiz olub, iş axtaranlar (28,2 faiz) arasındadır.

Gəlir səviyyəsi artdıqca qadınları yalnız özəl sahədə görən respondentlərin sayı azalır, həm özəl, həm də ictimai sahədə fəallığını məqbul hesab edənlərin sayı isə artır.

**Mövzu ilə bağlı sosioloq Əhməd Qəşəmoğlu “Yeni Müsavat”a danışıb:** “İlk növbədə hesab edirəm ki, Sosial Tədqiqatlar Mərkəzi bu cür sorğular keçirəndə həm də mənim kimi illərin sosioloqundan da fikirlər almalıdır. Mənim təmənnam sadəcə budur ki, bu cür sorğular ölkəmizdən yana olsun, mənim də bir xeyrim dəyərdi. Həmçinin qeyd edim ki, hazırda ölkədə ailə institutu ilə bağlı vəziyyət bərbaddır və fikrimcə, bu cür sorğuların bu vəziyyətin düzəlməsinə təsiri yoxdur. Əgər ailə institutumuzu yaxşılaşdırmaq istəyiriksə, ciddi işlər görməliyik.

O ki qaldı qadınların cəmiyyətdə sosial roluna, ölkədə ailə məsələsində kişilərimiz hələ də köhnə adət-ənənələrə köklənmiş vəziyyətdədir. Nə qədər maarifləndirmə işləri aparılsa da ki, indi demokratik cəmiyyətdir, qadınların da iş həyatı olmalı, işləməli, ictimai həyatda fəal olmalıdır və sairə, yenə də bir çoxları köhnə adətlərdən, fikirlərdən ayrıla bilmirlər. Ümumiyyətlə, biz daha çox qadın mövqeyindən danışırıq, əksərən kişi mövqeyi unudulur. Amma əslində nə qadın, nə də kişi mövqeyindən deyil, ailəni necə qoruyub, saxlaya bilməyimizdən danışmalı, diqqət etməliyik.

Məsələn, belə bir sorğu edə bilərdik ki, ailənin dağılmaması üçün qadınlar nə etməlidir? Biz bu gün ailələrin dağılmaması üçün hansı işləri görməliyik deyə düşünməliyik. Və yaxud qadınlar arasında sorğu keçirmək olar ki, onlara hansı şəraitdə işləmək zövq verər. Yəni necə şərait yaratmaq olar ki, həm uşaqlarını tərbiyə etsinlər, həm də işləsinlər. Hesab edirəm ki, bu sorğuları keçirməklə həm də bu məsələnin həllini tapmış olarıq.

Azərbaycan ailəsi min illər boyu tamam başqa dəyərlər əsasında formalaşmışdı və burada ailənin mövcudluğunun öz prinsipləri var idi. Azərbaycan ailəsi elə bir institut idi ki, burada insanın fiziki cəhətdən rahatlanmasına, mənəvi inkişaf etməsinə şərait var idi. Hər bir ailə uşaqlarını şəxsiyyət olaraq formalaşdıran bir məktəb idi. Azərbaycan ailəsi indiki kimi, sadəcə olaraq, ər, arvad və uşaqlardan ibarət deyildi. Azərbaycan ailəsini elə xilas etmək lazımdır ki, həm qadın, həm kişi xoşbəxt olsun. İndiki ailə ilə 50 il bundan əvvəlki ailəni müqayisə eləmək olmaz. Təəssüf ki, indiki ailələrdə arzuolunmaz deformasiya prosesləri getməkdədir. Bu gün cəmiyyət çox həssaslaşıb və belə bir həssas cəmiyyətdə qadınların rolu çox mühümdür. Cəmiyyətdə, ictimai həyatda qadınların rolunu artırmaq üçün yeni modellər düşünmək lazımdır. Bu modelləri düşünmək üçün isə sorğular keçirməyə böyük ehtiyac var".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Xalidə GƏRAY

# Ermənistanda Azərbaycan dilinə xüsusi “qayğı”nın səbəbi - 4 məktəbdə…

**Təhlükəsizlik eksperti:** “Bu, Ermənistanın məhz strateji xarakter daşıyan addımıdır”
**Təhsil eksperti:** “Azərbaycan universitetlərində erməni dili tədris edilir, amma…”

**“Ermənistanda 2022-2023-cü tədris ilində 12 məktəbdə türk dili (Türkiyə türkcəsi - red.), 4-də isə Azərbaycan dili tədris edilib”.**

“Yeni Müsavat” xəbər verir ki, bu barədə “Sputnik Ermənistan”ın yazılı sualına cavab olaraq Ermənistan Təhsil Nazirliyindən məlumat verilib. Nazirlikdən vurğulanıb ki, Azərbaycan dili və Türkiyə türkcəsi yalnız 10-12-ci sinif şagirdləri tərəfindən öyrənilir.

Məlumata əsasən, 2022-2023-cü tədris ilində 33 ümumi təhsil müəssisəsində regional dillərin tədrisi təşkil olunub, onlardan 13-də fars, 3-də gürcü, 12-də Türkiyə türkcəsi və 4-də Azərbaycan dili tədris olunmağa başlayıb. “Mxitar Heratsi” tədris kompleksində isə orta və ali məktəblərdə bütün dörd dil öyrənilir: “Daha 400 erməni məktəbi yaxın gələcəkdə regional dilləri (türk, Azərbaycan, gürcü və İran) öyrənmək istəklərini bildiriblər”.

Ermənistan Təhsil Nazirliyindən həmçinin bildirilib ki, əgər təhsil müəssisələri hazırdırsa və müvafiq mütəxəssis varsa, onlar müstəqil şəkildə regional dillərdə tədris təşkil edə bilərlər.



Sözsüz ki, düşmən ölkədə dilimizin öyrənilməsi heç də Azərbaycana sayğı və ya sevgidən irəli gəlmir. Bu prosesə, sadəcə, Azərbaycana və Türkiyəyə qarşı potensial təxribatçılar, kəşfiyyat xidməti agentləri və hətta terrorçu hazırlığının tərkib hissəsi kimi baxırlar. Bunu gizlətmirlər də. Çünki söhbət Türkə nifrəti azalmaq bilməyən, ksenofobiyası nəsildən-nəslə, az qala ana südü ilə keçən faktiki terrorçu bir toplumdan gedir. Odur ki, bu prosesi diqqətlə izləməyimiz yaxşı olar.

**Sabiq təhlükəsizlik xidməti polkovniki, təhlükəsizlik üzrə ekspert İlham İsmayıl mövzu ilə bağlı “Yeni Müsavat”a danışıb**: “Bu, Ermənistanın məhz strateji xarakter daşıyan addımıdır. Əlbəttə ki, onlar bizə sevgi bəsləmirlər, ermənilər uzun illərdir ki, bizi düşmən kimi görürlər və çox güman ki, bundan sonra da belə görəcəklər. Onlar, sadəcə, Türkiyə türkcəsi, Azərbaycan dilinin öyrənməklə daha çox informasiya, məlumat əldə etməyə çalışırlar. Beləliklə, bir daha qeyd edirəm, Azərbaycan dili, Türkiyə türkcəsini öyrənmək onlar üçün strateji xarakter daşıyır.

Bizə gəldikdə, biz burada qəbahət axtarmamalıyıq, amma təhlükəsizliyimizi təmin etmək əvvəlcədən tədbirlər görülməlidir. Məsələn, xüsusi xidmət orqanlarımız Azərbaycan dilini öyrənəcək həmin gənclərin kim olduğunu, onların nəyə xidmət edəcəkləri haqqında informasiyalara nail olmalıdır ki, onlardan bizə gələ biləcək zərərin qarşısı vaxtında alınsın. Tutaq ki, 100 nəfər Azərbaycan dilini öyrənəcək, onların hamısı da olmasa, təxminən 10 nəfərindən Azərbaycana qarşı istifadə olunacaq, məhz həmin 10 nəfərin haqqında qabaqcadan informasiya əldə etməyimiz zəruridir".

**İlham İsmayıl qeyd edib ki, Azərbaycanda da erməni dili tədris olunmalıdır:** “Bildiyim qədər xüsusi xidmət orqanlarında, Müdafiə Nazirliyində, hətta Sərhəd Qoşunlarında bu istiqamətdə müəyyən tədbirlər görülüb. Bir daha qeyd edirəm, bu məsələyə normal baxmalıyıq, amma eyni zamanda hazırlıqlı olmalıyıq”.

Bəs Azərbaycan məktəblərində erməni dili öyrənilirmi? Ermənidilli kadrlarımız nə qədərdir?

**Təhsil eksperti Kamran Əsədovun bu barədə dedikləri:** “Tanınmış siyasi liderlər də təsdiq edirlər ki, düşmənlə mübarizə aparmaq üçün ilk növbədə onun dilini bilmək lazımdır. Belə ki, SSRİ rəhbəri Stalin II Dünya müharibəsi davam edərkən orta məktəblərdə şagirdlərə alman dilinin tədris olunması ilə bağlı göstəriş vermişdi. Düşmənin dilini bildikdən sonra mübarizə istər-istəməz asanlaşır. Mübarizə dedikdə isə həm hərbi münaqişələr, həm də media üzərindən informasiya müharibəsi nəzərdə tutulur. Yəni həm hərbiçilər, həm də digər peşələrə yiyələnmiş şəxslər düşmənin dilini bilməklə ona qarşı mübarizəni daha da asanlaşdıra bilərlər. Bununla, düşməni bir növ onun dili ilə vurmaq mümkün olur.

Əslində dil bilgisini iki qismə ayırmaq mümkündür: beynəlxalq dil statusuna sahib olan ingilis, alman, fransız dilləri və region dilləri. Dil bilmək insanın dünyagörüşünü, biliyini zənginləşdirir. Belə bir ifadə var: “Neçə dil bilirsənsə, o qədər adamsan”. Yəni dil bilmək vacibdir. Biz erməni dilini bilməliyikmi? Erməni dilini kütləvi şəkildə öyrənmək yox, tədris vəsaiti əsasən universitetlərdə, Müdafiə Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Dövlət Sərhəd Xidməti akademiyalarında tələbə və müəllimlər və eyni zamanda erməni dilini öyrənmək istəyənlər müstəqil qaydada seçim etməli, öyrənməlidirlər.

Biz bu məsələdə hətta ermənilərdən üç il geri qalmışıq. Ermənilər üç il əvvəl Azərbaycan dili tədris vəsaiti hazırlayıb və hazırda həmin vəsait universitetlərdə tədris olunur. Azərbaycanda BDU və Slavyan universitetlərində erməni dili tədris edilir, bir neçə il əvvəl Xəzər Universitetində də bu dildən dərs deyilib və tələbələrin dərsə olan marağını müşahidələrimdə görmüşəm".

**Kamran Əsədov əlavə edib ki, hazırda mənbə üçün kitab lazımdır:** “Bu günə qədər Azərbaycanda erməni dili ilə bağlı tədris vəsaiti yazılmayıb, olanlar da ümumi kitablardır. Düşmənimizin dilini öyrənmək, əlbəttə, vacibdir. İstər dövlətin təhlükəsizliyi baxımından, istərsə də tarix elminə yeni yanaşma baxımından erməni dilini bilmək lazımdır”.

❑ **Xalidə GƏRAY,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 115 (8251) 8 iyul 2023

# Zelenski Türkiyədə - Ərdoğandan bunu xahiş edəcək

## Asim Mollazadə: "Türkiyə istəyir ki, Rusiya ilə Ukrayna arasında yenidən normal münasibətlər olsun..."



**Ukrayna Prezidenti Volodimir Zelenski iyulun 7-də Türkiyəyə səfər edib. Türkiyə mediasının məlumatına görə, səfər çərçivəsində Zelenskinin türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla görüşü gözlənilirdi.**

Prezidentlərin təkbətək və nümayəndə heyətlərinin iştirakı ilə danışıqlar aparması nəzərdə tutulurdu. Türkiyə və Ukrayna liderləri ikitərəfli əlaqələri və Taxıl Sazişini müzakirə etməli idilər.

Rəcəb Tayyib Ərdoğan Ukraynanın dövlət başçısı Volodimir Zelenski ilə görüşəndən sonra Rusiya lideri Vladimir Putinlə də bir araya gələcək. "A Haber"in xəbərinə görə, görüşün yeri və dəqiq tarixi açıqlanmayıb. R.T.Ərdoğan və V.Putinin üz-üzə müzakirələr aparacaqları gözlənilir.

Qeyd edək ki, bu, Rusiyanın qonşu Ukraynaya qarşı işğalçı müharibəyə başlamasından Volodimir Zelenskinin Türkiyəyə ilk səfəridir. Vladimir Putinin belə bir ziyarəti olmayıb.

Kremlin sözçüsü Dmitri Peskov Ərdoğanın Ukrayna probleminin həlli üçün çox səy göstərdiyini və Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşünün nəticələrini yaxından izləyəcəklərini bildirib.

Prezident Ərdoğanın Türkiyədə Zelenski ilə görüşü ilə bağlı jurnalistlərə açıqlama verən Peskov, "Təbii ki, görüşün nəticələrini çox yaxından izləyəcəyik. Ankara ilə konstruktiv tərəfdaşlıq münasibətlərimiz davam edir. Biz bu əlaqələri yüksək qiymətləndiririk və Türkiyə tərəfdən qarşılıqlılıq hiss edirik. Təbii ki, cənab Zelenski ilə nəyin müzakirə olunacağı bizə də maraqlı olacaq. Bu vacibdir" deyib.

"Zelenski Ərdoğanın yenidən Türkiyə prezidenti seçilməsindən sonra Ankara ilə mövcud razılaşmaları təsdiqləmək istəyir".

Bu fikri Rusiya Federasiyası Hökuməti yanında Maliyyə Universitetinin eksperti Denis Denisov "İzvestiya"ya müsahibəsində bildirib.

Onun sözlərinə görə, Kiyevin əsas məqsədi mövcud razılaşmaları düzəltməkdir. Politoloq əlavə edib ki, bu, Ukrayna ilə Türkiyə arasında hərbi-texniki sahədə əməkdaşlığa dair sazişlərə də aiddir, çünki Türkiyədən bir sıra silahların tədarükü davam edir.

Ərdoğanla Ukrayna prezidenti arasındakı görüş zaman aydındır ki, mövzu təkcə Taxıl Sazişi olmayacaq. Bəs Ukrayna lideri qapalı görüşdə həmkarı Rəcəb Tayyib Ərdoğandan əsas nə xahiş edə bilər? Bu səfərin müharibənin gedişatına mümkün yaxın-uzaq təsirləri ola bilərmi?

**Deputat Asim Mollazadə "Yeni Müsavat"a deyib ki, Türkiyə Ukraynaya çox böyük dəstək verir və sülh əldə etmək üçün səylərini əsirgəmir:** "Sülh danışıqlarını bərpa etmək, eyni zamanda taxıl ixracının təşkili məsələlərində də Türkiyə əlindən gələn köməyi əsirgəmir. Prezident Ərdoğan sülh əldə olunması istiqamətində ardıcıl addımlar atır. Türkiyə istəyir ki, Rusiya ilə Ukrayna arasında yenidən normal münasibətlər olsun. Bu istiqamətdə Türkiyənin əzmkarlığı var".

**Asim Mollazadəyə görə, bu görüş Türkiyə Ukrayna münasibətlərinin genişlənməsinə xidmət edəcək:** "Türkiyə ilə Ukrayna arasında böyük layihələr var. Bu layihələr hərbi sənayeni əhatə edir. Bununla bağlı tərəflər arasında razılaşmalar mövcuddur."

**Asim Mollazadə bildirib ki, Türkiyə və Ukrayna liderlərinin görüşündən sonra Rusiya Ukrayna müharibəsinin dayanacağı gözlənilmir:** "Bu müharibəni Rusiya başlayıb. Bu gün Rusiya sülhə hazır deyil və bu baxımdan liderlərin görüşündən sonra sülhə nail olunacağı da inandırıcı görünmür".

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**



# Antiterror əməliyyatları belə aparılacaq: Ağdərə istiqamətində... - polkovnik açıqladı

**Artıq Qarabağdakı separatçılar və Ermənistan tərəfi də vəziyyətin ciddiliyini başa düşür. Ona görə də informasiya təlaşı yaşanır və maksimum dərəcədə hay-küy saxlamağa çalışırlar. İddia edirlər ki, guya Azərbaycan yaxın günlərdə Qarabağda antiterror əməliyyatlarına başlayacaq.**

"Yeni Müsavat"ın məlumatına görə, bunu Teleqraf.com-a **hərbi ekspert, polkovnik Üzeyir Cəfərov** deyib. O qeyd edib ki, əslində Azərbaycanın antiterror əməliyyatlarından başqa yolu qalmayıb:

"Çünki ölkəmizin bu məsələni uzadacağı inandırıcı deyil. Separatçıların başçısı Araik Arutyunyanın Vladimir Putinə məktubu da məhz bundan qaynaqlanır. Bu, onların açıq narahatlığı ilə bağlıdır. Digər amil separatçı rejim bununla haradan idarə olunduğunu və təlimat aldığını da göstərmiş oldu".

**Polkovnikə görə, Azərbaycanın antiterror əməliyyatlarını necə, nə vaxt keçirəcəyi sözsüz ki, məxfi saxlanılır:** "Separatçıların Azərbaycanla dialoq təklifləri də absurddur. Çünki bu mümkün deyil. Ölkəmiz şərtini onlara bildirib. Silahlarını yerə qoyub, qondarma parlamentin buraxılmasından sonra Azərbaycan onlara qarşı olan davranışını açıqlayacaq".



Üzeyir Cəfərov

**Üzeyir Cəfərovun fikrincə, separatçıların sülhməramlıların müşayiəti ilə son hərbi yerdəyişmələri də onların yenidən döyüşə hazırlaşdıqlarını göstərir:** "Ona görə də Azərbaycanın burada gücdən istifadəsi qaçılmazdır. Ölkəmizin Xüsusi Təyinatlıları və Komando qüvvələri üçün bu elə də böyük çətinlik törətməyəcək. Bu baxımdan, şəhər və çətin relyefli ərazidə Azərbaycan Komandosu öz vəzifəsi icra edəcək".

**Ekspert hesab edir ki, atiterror əməliyyatlarının Ağdərə və Xankəndi ətrafından xəritə üzərində müəyyənləşərək başlaması qaçılmazdır:** "Bütün bunlar nəzəri baxımdan diqqətdən keçirilib və hazırlıqlar yekunlaşıb. Sözsüz ki, antiterror əməliyyatlarının vaxtını heç kəs bilmir. Separatçılar Azərbaycanın tələblərini icra etməsə, antiterror əməliyyatları qısa zamanda icra ediləcək".

# ABŞ və İran hərbi gəmilərinin Oman körfəzində "qaçdı-tutdu" oyunu



**ABŞ və İran Oman körfəzində qarşıdurma vəziyyətindədirlər. Buna səbəb Vaşinqtonun bir neçə gün öncə Tehranı iki neft tankerini ələ keçirmək cəhdində ittiham etməsidir. Vaşinqtonun irəli sürdüyü ittihamlara cavab verən İran rəsmiləri isə bildiriblər ki, tankerlərə heç bir hücum cəhdi olmayıb.**

Bununla belə, İran sərhədləri yaxınlığında gəmilərin bir sıra risklərlə məruz qaldığına dair sübutlar ictimailəşdirilib. ABŞ hərbi dəniz qüvvələrinin məlumatına görə, son iki il ərzində İran 20-yə yaxın ticarət gəmisinə hücum edib.

ABŞ HDQ İranın Oman körfəzində iki ticarət tankerini ələ keçirməsinə mane olduğunu bildirib. Bugünlərdə yayılan hesabatda deyilir ki, İran hərbi gəmisi gecə ərzində Marşal adalarının bayrağı altında üzən neft tankeri "TRF Moss"a yaxınlaşıb, lakin "Makfaul" adlı idarəolunan raket esminesi hadisə yerinə gəldikdən sonra İran gəmisi geri çəkilmək məcburiyyətində qalıb.

Bənzər bir hadisə üç saat sonra baş verib. Hərbçilər ABŞ-ın "Şevron" neft şirkətinə məxsus, Baham adalarının bayrağı altında üzən "Richmond Voyager" tankerindən qəza siqnalı alıb.

İran gəmisi "Richmond Voyager" tankerinə yaxınlaşaraq dayanmağı tələb edib. Daha sonra iranlılar atəş açıblar.

Tankerin gövdəsinə bir neçə güllə dəysə də, zərər cüzi olub. Ekipaj xəsarət almayıb. ABŞ esminesi peyda olanda iranlılar hadisə yerini tərk ediblər.

Dünən axşam İRNA xəbər agentliyinin yaydığı xəbərdə deyilir ki, iki gün əvvəl "Richmond Voyager" təyyarəsi göyərtəsində yeddi ekipaj üzvü olan İran gəmisi ilə toqquşub. Nəticədə İran gəmisinin arxa hissəsi zədələnib, ekipajdan isə 5 nəfər ağır yaralanıb. Tankerin bundan sonra dayanmadığı və beynəlxalq dəniz hüququ müddəalarını pozaraq yoluna davam etdiyi vurğulanır. Nəticədə İran gəmisinin sahibi tankerin saxlanılması tələbi ilə İranın məhkəmə orqanlarına müraciət edib. Məhkəmə qərarı ilə bunu İran hərbi dəniz qüvvələrinə tapşırıb.

Qanunu pozan tanker Omanın ərazi sularına daxil olub. İran tərəfi "Riçmond Voyager"in saxlanılmasına ümid etməkdə davam edir. Eyni zamanda İran Müdafiə Nazirliyi ABŞ hərbçilərinin İran gəmiləri tərəfindən tankerləri ələ keçirməyə cəhd etməsi ilə bağlı xəbəri təkzib edib.

Baş verən hadisələr həm regional oyunçuları, həm də neftin nəqli və ticarəti ilə məşğul olan hər kəsi narahat edib. 2019-cu ildə Oman və Fars körfəzləri regionunda "tanker müharibəsi"nin necə başladığı barədə xatirələr hələ də çox təzədir. Daha sonra bu ərazidə naməlum şəxslər tərəfindən xarici tankerlərə bir neçə hücum edilib. ABŞ dərhal İranı ittiham edib və Fars körfəzində gəmiçiliyi qorumaq üçün hərbi koalisiya yaratmaq təşəbbüsü ilə çıxış edib.

Xatırladaq ki, ABŞ İrandan neft ticarətinə sanksiya tətbiq edib. İran adətən bu cür hərəkətlərə "gözə göz" prinsipi ilə cavab verir.

# Azərbaycanlı müğənnilər də Türkiyə toylarına dəvət alırmı? - ən bahalı sənətçi...

**Xəbər verildiyi kimi, Türkiyənin super ulduzu Ebru Gündeş bugünlərdə Azərbaycanda toyda olub. Sənətçinin Şəmkir rayonunun Şiştəpə kəndində təşkil olunan dəbdəbəli toy məclisində səhnə almaq üçün 250 min manat qarşılında vətənimizə təşrif buyurduğu deyilir. Lüks villada təşkil olunan toya türkiyəli müğənni şəxsi ansamblı ilə birlikdə gəlib.**



Türkiyəli müğənnilərin Azərbaycan toylarına çağırılması ilk dəfə deyil və bu artıq bir ənənə halını alıb desək, yanılmarıq. Təbii ki, türkiyəli sənətçilərin ölkəmizə gəlişi toy sahibləri üçün xeyli baha başa gəlir. Dəfələrlə azərbaycanlı iş adamları, məmurlarının türkiyəli müğənnilər üçün külli miqdarda pul xərcləyib, toylarına dəvət etdikləri haqda mətbuatda məlumatlar dərc olunub və bu informasiyalar uzun müddət gündəmdə qalaraq, müzakirə obyektinə çevrilib.

Bəs maraqlıdır, türkiyəli məşhurların Azərbaycan toylarında səhnə alması üçün nə qədər pul tələb olunur?

Araşdırmalardan məlum olur ki, Azərbaycan toylarına ən baha qiymətə gələn məşhur türkiyəli müğənni Tarkandır. Meqastarın ölkəmizdə toy mərasimindən çıxışı üçün 1 milyon manat tələb olunur. Hələ bu il yanvarın əvvəlində Tarkanın Bakı toylarının birində iştirak edəcəyi və bunun üçün 1 milyon pul tələb olunduğu haqda mətbuatda məlumatlar yayılmışdı.

Bu məsələdə ikinci sırada müğənni Ajda Pekan gəlir. Superstarı toya dəvət etmək istəyən azərbaycanlı ən azı 200 min manatından keçməlidir. Hələ pandemiya dövründə, daha dəqiq desək, 2021-ci ilin iyununda müğənniyə Azərbaycanda məkanların birində səhnəyə çıxması üçün 1 milyon 46 min lirə (204 min 597 AZN) məbləğində təklif olmuşdu, lakin müğənni pandemiya səbəbindən bu təklifi rədd etmişdi.

Məşhur türkiyəli müğənni Murad Boz da Azərbaycana toya gələn sənətçilər sırasındadır. Bu ilin yanvar ayında Bakıda toyda iştirak edən müğənninin azərbaycanlı iş adamından 400 min dollar ( təxminən 700 min AZN) pul alması haqda Türkiyə mətbuatda məlumatlar yayılmışdı.

Mustafa Ceceli də tez-tez Azərbaycan toylarında görünür. İddialara görə, müğənninin ölkəmizdəki toyda çıxışı üçün təxminən 100 min manatdan çox qonorar tələb olunur.

Azərbaycanlı müğənnilər necə, Rusiya, Gürcüstanla yanaşı, qardaş ölkədəki toy mərasimlərinə də çağırılırmı?

Azərbaycandan hansısa müğənninin Türkiyədə toya dəvət alması haqqında məlumata rast gəlməsək də, Türkiyədə yaşayan müğənnilərimiz azərbaycanlıların toyuna dəvət alır. Onlardan biri də Türkiyədə yaşayıb, yaradıcılığını davam etdirən İradə İbrahimovadır. Onun Türkiyədə hansı qonorar tələb etdiyi isə mətbuata məlum deyil.

Azərbaycanın ən bahalı toy müğənnisi kimdir?

Referans.az saytı şou-biznes ulduzlarının son toy qiymətlərini araşdırıb. Bu qiymətlər toyda iştirak şərtlərinə görə dəyişir.

Məsələn, yarım saatlıq çıxış üçün qiymət, bütöv toy qiymətlərindən azı 3-5 dəfə az olur. Amma toyu əvvəldən-axıra qədər idarə edən müğənnilər ansambl, aparıcı, rəqs qrupu və ümumi şou-proqramın xərclərini də xidmət haqqına əlavə edir.

Müğənnilərin yarım saatlıq və limitsiz (toy başlayandan qurtarana qədər) toy qiymətlərini təqdim edirik:

Nuri Sərinləndirici - 8500 AZN, 23800 AZN;

Abbas Bağırov - 5000 AZN, 18000 AZN;

Xatirə İslam - 4000 AZN, 11000 AZN;

Nadir Qafarzadə - 3000 AZN, 10000 AZN;

Damla Məmmədova - 3000 AZN, 5000 AZN;

Talıb Taleh - 3000 AZN, 6000 AZN;

Şəbnəm Tovuzlu - 3000 AZN, 5000 AZN;

Tərlan Novxanılı - 1500, 5000 AZN;

Aqşin Fateh - 1500 AZN, 2500-3500 AZN;

Türkan Vəlizadə - 2000 AZN, 4000 AZN.

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

## Güclü külək əsəcək, yağış yağacaq - XƏBƏRDARLIQ



**Bakıda və Abşeron yarımadasında iyulun 10-u səhərdən 11-i axşamadək şimal-qərb küləyinin 15-20 m/s, 10-da bəzi yerlərdə arabir 23-25 m/s-dək güclənəcəyi gözlənilir.**

"Report" xəbər verir ki, bu barədə Milli Hidrometeorologiya Xidmətinin yaydığı xəbərdarlıqda bildirilir.

Azərbaycanın rayonlarında iyulun 8-də günün ikinci yarısından 10-u axşamadək bəzi şimal və qərb rayonlarında fasilələrlə yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Əsasən Gəncə-Qazax, Daşkəsən-Gədəbəy, Balakən-Şəki bölgələrinin bəzi yerlərində yağıntıların leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var.

Şərq küləyinin iyulun 7-si gündüzdən 11-dək bəzi yerlərdə arabir 15-20 m/s, ayrı-ayrı yerlərdə arabir 23-25 m/s-dək güclənəcəyi gözlənilir.

Çaylarda sululuğun artacağı, bəzi dağ çaylarından qısamüddətli daşqın və sel keçəcəyi ehtimalı var.

# "Şahın oğlunun başını kəsib süfrəyə qoydular"

## İngilislər Moğol İmperiyasında 2 milyon müsəlmanı qətlə yetirdi

**Böyük Moğol İmperiyasının sonuncu hökmdarı II Bahadır Şah həm də şair və xəttat olaraq tanınırdı. Bir çoxları onu siyasi liderdən daha çox sənətçi kimi qəbul edirdi.**

Bilməyənlər üçün bildirək ki, Böyük Moğol İmperiyasını Teymurilər dövlətinin banisi Əmir Teymurun (1370-1405) torunları yaradıb. Böyük Moğol imperiyası hazırda mövcud olan Hindistanın ərazisini ehtiva edirdi. 1526-1857-ci illər arasında mövcud olmuş bu imperiyanın əsasını isə Qazi Zahirəddin Məhəmməd Babur (1494-1500) qoyub. Baburun Çağatay türkcəsində yazdığı və həyatından xronoloji olaraq bəhs etdiyi Baburnamə əsəri Türk ədəbiyyatı tarixində önəmli yerə sahibdir. Babur eyni zamanda Çağatay türkcəsində yazılmış ədəbiyyatın Əlişir Nəvaidən sonra ən böyük şairi hesab olunur...

II Bahadır Şah isə urdu dilində yazıb. Urdu anlamı türk dillərində olan ordu sözündən gəlir. Moğollar (moğol sözü də monqol sözünün hind dilindəki tələffüzündən yaranıb) müxtəlif xalqların qarışığından yaratdıqları orduda süni yaradılmış urdu dilindən istifadə edirdilər. Urdu dili bəzən Laşkari dili olaraq da adlandırılır. Ləşkər sözü də fars dilindən gəlir və ordu anlamını verir. Urdu dili hazırda Pakistan və Hindistanda rəsmi dövlət dillərindən biridir. Bu dil türk, monqol, fars, sanskrit, ərəb, hind dillərindən çox söz alıb. Urdu əlifbası ərəb əlifbasına əsaslanır. Hazırda bu dil 70 milyon adamın ana dilidir. Ancaq bu dil geniş yayılıb və 230 milyondan çox insan bu dildə danışa bilər.

İngilislər Hindistana hücum edəndə o, qocalıb əldən düşmüşdü, ömrünün qürub çağını yaşayırdı. İngilis tarixçiləri yazır ki, Moğolların sonuncu imperatorunu bir gecədə taxtdan saldılar. 1857-ci ildə Dehlidə şahın qeyd-şərtsiz təslim olması üçün onun kiçik oğlunun başını kəsib səhər yeməyi verilən boşqabın içində qarşısına qoydular. Şahın digər oğullarını da güllələdilər.

O günlərdə II Bahadır Şah Zəfərin tərəfdarları ingilislərə qarşı vuruşurdu. Həmin döyüşlərdə 2 milyondan çox müsəlman qətlə yetirildi. Böyük Moğol İmperiyasını ingilislər qan içində basdırdılar...

Tarixçilər onu da yazır ki, ingilislər Hindistanı özlərinə tabe etmək məqsədilə qədim Romadan qalmış "Parçala, hökm sür" siyasətini işə saldılar. Hinduizmə tapınan insanlarla müsəlmanlar arasında düşmənçilik toxumu səpildi. Bu bələ bu gün də davam edir, hər il Hindistan, Pakistan və Banqladeşdə dini zəmində minlərlə insan qətlə yetirilir. Halbuki Moğollar dönəmində Hindistan fərqli dinlərin harmoniyasına köklənmişdi.

İngilislərin sürgünə göndərdiyi 87 yaşlı şah 1862-ci ilin noyabrında Rangune şəhərində vəfat etdi. Britaniya imperiyası onun qəbrinin yerini uzun müddət gizli saxladı. Yalnız 1991-ci ildə II Bahadır Şah Zəfərin qəbri təsadüf nəticəsində aşkara çıxdı.

O da maraqlıdır ki, 1975-ci ildə Hindistanda II Bahadır Şahın dünyaya gəlişinin 200 illiyi ilə bağlı poçt markası buraxılıb. Markanın üzərində isə şahın urdu dilində yazdığı şeir yer alıb...

Onu da deyim ki, Bahadır Şahın 4 xanımı olub. Türk törəninə uyğun olaraq onların dördünün də adı "bəyim" müraciəti ilədir. Sonuncu xanımının adı isə Tac Mahal bəyimdir.

22 oğlu, 32 qızı olmuş şah sufi düşüncəsinə sahib idi. O, sufilikdə ən yüksək məqam olan pir kimi tanınırdı. Çoxsaylı müridləri vardı. Daha çox kasıb alim və dərviş kimi görünürdü. Dini baxımdan xüsusi statusda olması ona imperator kimi müqəddəslik məqamı qazandırmışdı.

Şah Zəfər bir misrasında həm hinduizm, həm də islam eyni mahiyyəti bölüşür, deyir. Bu yanaşma çoxmədəniyyətli Hindu-İslam Moğol mədəniyyətini özündə cəmləşdirirdi. Şah öz sarayında Rakhi, Holi, Divali kimi bir çox hindu bayramlarını qeyd edərdi. Şah Zəfər şiə müsəlmanlara qarşı da dözümlü idi və onun sarayında şiələrə də ehtiram göstərilirdi.

İngilislər şahı onlara qarşı qiyam təşkil etməkdə suçlayırdılar. Bununla bağlı 21 gün davam edən məhkəmə quruldu.

19 dinləmə keçirildi, 21 şahid ifadə verdi. Məhkəmənin gedişi fars və urdu dillərində qeydə alındı, ingilis dilinə tərcümələri ilə birlikdə yüzdən çox sənəd məhkəməyə təqdim olundu. Şah Dehlidəki Qırmızı Qala adlanan yerdə mühakimə olundu. Onun haqqında ölüm





hökmü çıxarıldı, ancaq hökm icra olunmadı. Şahı Ranquna sürgünə göndərdilər. Xanımları və sağ qalan iki oğlu onunla birlikdə sürgünə yollandı...

İngilislər Moğol İmperiyasının idarə etdiyi Hindistanı 2 milyondan çox insanı qətl edərək ələ keçirdilər. Və möhtəşəm bir ölkə ingilislər tərəfindən vəhşicəsinə qarət olundu...

Bu gün də Böyük Britaniya qeyri-rəsmi şəkildə Hindistan, Pakistan və Banqladeşi öz təsir dairəsində saxlayır. Balaca Britaniya yeritdiyi siyasətin hesabına bu nəhəng ölkələrin hələ də öz cazibəsindən qopmasına imkan vermir...

❑ **Elbəyi HƏSƏNLİ**

YENİ MÜSAVAT

Son səhifə

N 115 (8251) 8 iyul 2023

iyul


## Bunları bilirsinizmi?

* Normadan çox yemək yeyən insanların eşitmə qabiliyyəti zəifləyir.
* Meşə yanğınları yoxuş istiqamətində daha sürətli yayılır.
* Uşaqların bahar fəslində daha sürətlə böyüdüyü sübuta yetirilib.
* Nə qədər qəribə olsa da, eskimoslar soyuducuları yeməklərin donmaması üçün istifadə edir.
* "Ketçup" əvvəllər dərman kimi istifadə edilib.
* İtaliya bayrağının dizaynını Napoleon Bonapart hazırlayıb.
* Soyuq otaqda yatan insanların pis yuxu görmə ehtimalı digərlərinə nisbətən daha çoxdur.
* Diş çöpləri yanlış istifadə nəticəsində amerikalıların boğulmasına ən çox səbəb olan vasitədir.
* Ən uzun barmaqdakı dırnaq ən sürətli, ən qısa barmaqdakı isə ən yavaş templə uzanır.
* Koalalar, primatlar və insanlar özlərinə xas barmaq izi olan yeganə canlılardır.
* Kağız parçalarından Yer üzündə ilk dəfə Çində istifadə edilib.
* İnsanlar anadan bədənlərində 300 ədəd sümüklə doğulur. Yetkinlik dövrünə çatdıqca isə sümüklərin sayı 206-ya qədər azalır.
* Telefonu icad edən Aleksandr Qraham Bell həyat yoldaşı və anası ilə heç vaxt telefonla danışa bilməyib. Çünki onların ikisi də anadangəlmə kar olub.
* İnsan səhər yuxudan ayıldıqda boyu standart ölçüdən 1 sm artıq olur.
* Kosmosa qaldırılacaq hər 1 kilo çəki üçün sərf olunan yanacaq miqdarı 530 litrdir.

## Qəhvəni ancaq bu saatda için

**ABŞ-dan olan dietoloqlar qəhvə içmək üçün ən yaxşı zaman kəsiyini müəyyənləşdiriblər. Onların tövsiyələri She Finds tərəfindən nəşr olunub.**

Amerikalı qidalanma mütəxəssisi Christina Taul səhər içilən bir fincan qəhvənin maddələr mübadiləsinin düzgün başlamasına və hətta arıqlamağa kömək edəcəyinə inanır. Mütəxəssis oyandıqdan sonra boş bir mədədə limon suyu olan bir stəkan su içməyi və yarım saatdan sonra - səhər yeməyi ilə bir fincan qəhvə içməyi məsləhət görür. Onun sözlərinə görə, limonlu su mədədə düzgün qələvi mühit yaradacaq və qəhvə nəinki canlandıracaq, həm də aclığı azaltmağa kömək edəcək.

"Səhər yeməyi üçün qəhvə çox yeməkdən qaçınmanıza kömək edəcək. Səhər bir çox insanlar daha çox yemək istəyirlər "-deyə rəydə o da bildirilir.

Mütəxəssislər şəkərsiz qara qəhvə içməyi məsləhət görürlər. "Normal qidalardan alınan qidalarla birlikdə kalori almalısınız və çox şirin qəhvə yalnız boş kalorilərdir - Richards xəbərdarlıq edir.

Bundan əlavə, dietoloqlar gün ərzində iştahı kəsmək üçün qəhvədən istifadə etməməyi və müntəzəm və balanslı yemək məsləhət görürlər.

Daha əvvəl Avstraliyadan olan bir qidalanma mütəxəssisi Melissa Meyer düzgün qidalanmanın yeddi qaydasını adlandırıb. O, bəzi yeməklərdən imtina etməmək, sağlam yemək vərdişlərini inkişaf etdirmək lazım olduğuna inanır.

# Las-Veqasda Ayı yerə "endirdilər"



**ABŞ-nin Las-Veqas şəhərində dünyanın ən böyük sferik binası tikilib.**

Sferanın hündürlüyü 111 metr, eni isə 157 metrdir. Bina 17 600 oturacaq və ya 20 000 ayaq üstü yer tutumuna malikdir və böyük konsertlərə, eləcə də boks, qarışıq döyüş sənəti kimi idman tədbirlərinə ev sahibliyi edəcək. Nəhəng ekran 2,3 milyard dollara başa gəlib. Sosial şəbəkələrdə musiqi və əyləncə arenasının möhtəşəm görüntüləri yayılıb.

## Bu balıq xərçəngə səbəb ola bilər



**Alimlər xərçəngə səbəb ola biləcək ən təhlükəli balıq növünün adını açıqlayıblar. Bu məhsulda xərçəng də daxil olmaqla, bir sıra xəstəliklərin inkişafına səbəb ola biləcək kanserogenlər var.**

Həkimlər və dietoloqlar balıqları rasionda əvəzolunmaz məhsul adlandırırlar. Sağlamlığı, sümüklərin möhkəmliyini, gözəl dırnaqları və saçları qorumaq üçün mütəmadi olaraq istifadə etmək tövsiyə olunur. Lakin bu, təhlükəli növ olan balıqların hamısına aid deyil, ekspertlər bununla bağlı xəbərdarlıq edir.

Qida mütəxəssisləri Hussein Abde duzlu balıq istehlakını mümkün qədər azaltmağı məsləhət görür. O, xəbərdarlıq edir ki, bu məhsulun tez-tez istifadəsi xərçəngə və digər xəstəliklərin inkişafına səbəb ola bilər.

## "TikTok" platformasında yenilik

**"TikTok" platforması yenidən dəyişikliklər etmək qərarına gəlib. Bununla bağlı platforma rəsmiləri bəyanat yayıblar. Bildirilib ki, "TikTok" icma təlimatlarını pozan məzmunu müəyyən etmək, nəzərdən keçirmək və bununla bağlı tədbir görmək üçün innovativ texnologiyalar komandalarının birləşməsindən istifadə edir.**



## Toy fotoqrafı manyak çıxdı

**İngiltərədə toy fotoqrafı Devid Qlover studiyasındakı geyinib soyunma otağında qadın müştərilərini gizlicə kameraya çəkirmiş. Mişel Faro adlı keçmiş model 2018-ci ildə Devidin onu gizlicə kameraya çəkdiyini aşkara çıxarır. O, təxminən 40 dəqiqə davam edən videoya görə fotoqrafı məhkəməyə verir.**

Məhkəmənin qərarı ilə o, 1 il 8 ay azadlıqdan məhrum edilir.

Qlover gizli kameranı zəngli saatın içərisinə yerləşdiribmiş. Araşdırmadan sonra məlum olub ki, o müxtəlif zamanlarda 70 fərqli qadının görüntüsünün qeydə alıb.

## Yeni sosial şəbəkəyə qoşulanların sayı 30 milyona yaxınlaşır

**"Meta" tərəfindən hazırlanmış, "Twitter"ə alternativ olaraq yaradılmış "Threads" sosial şəbəkəsi istifadəyə verildiyi 20 saat ərzində 30 milyona yaxın abunəçi toplayıb.**

Bu barədə "Meta" korporasiyasının rəhbəri Mark Zukerberq məlumat verib. Qeyd edək ki, "Twitter"in potensial rəqibi hesab edilən "Threads" "Instagram" sosial şəbəkəsinin bazasında fəaliyyət göstərir.

## Nəyə görə çox içənlər siqaretə meyllidir?



**Statistikaya görə, alkoqol içən insanların təxminən 80%-i eyni zamanda aktiv siqaret çəkənlərdir. İki toksin - nikotin və spirt bir-birinin təsirini on qat artırır.**

Milli.Az "Medicina"ya istinadən xəbər verir ki, psixiatr - norkoloq Vasiliy Şurovun sözlərinə görə, bu iki birləşmə zamanı orqanizmdə bunlar baş verir:

**1.** Etanol qan damarlarını genişləndirir və toxumaların hər hansı bir təsirə həssaslığını artırır, mədə mukozasını qıcıqlandırır.

**2.** Nikotin hüceyrələrə daha aktiv şəkildə nüfuz edir, sinir sistemini qıcıqlandırır, mədə şirəsinin ifrazını və mədə-bağırsaq hərəkətliliyini pozur. Əvvəllər spirtə məruz qalan orqanizm siqaret qatranını daha tez mənimsəyir. Bu insan ürəkbulanma, mədə ağrısı, ürək dərəcəsinin artması hiss edə bilər.

**3.** İçki içərkən siqaret çəkmək istehlak edilən spirtin dozasını artırır və asılılığın inkişafını sürətləndirir. Bunun səbəbi nikotinin alkoqolun yaratdığı yuxululuğu aradan qaldırması və insanın daha uzun müddət aktiv qalmasıdır.

**4.** Alkoqol və nikotinin eyni vaxtda udulması beynin həzz, mükafat sistemlərini işə salır və insan sanki içməkdən daha çox həzz alır.

**5.** San-Fransiskodakı Neyrodegenerativ Xəstəlikləri Görüntüləmə Mərkəzinin tədqiqatçıları da sübut ediblər ki, çox içki içənlər yaşlandıqca, koqnitiv zəifləmə riski ən yüksəkdir. Onların beyinləri daha tez qocalır.

## Öküz banka hücum etdi

**İsrailin Lod şəhərində qəzəbli öküz bank filialına hücum edib. Heyvan sahibindən qaçıb. Geniş yayılmış kadrlarda öküzün maliyyə qurumunun dəhlizində necə qaçdığı əks olunub. Bankın işçiləri və qonaqları gördükləri mənzərədən qorxuya düşüblər.**

Hadisə şahidlərinin dediklərinə görə, öküz özünü aqressiv aparıb, onu sakitləşdirmək səylərinə, o cümlədən sahibinin cəhdlərinə heç bir reaksiya verməyib. Hadisə yerinə gələn baytar heyvanı sakitləşdirici oxla vuraraq zərərsizləşdirə bilib.

Səhifəni hazırladı: SELCAN


Redaktor: Zahid SƏFƏROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Sifariş: 1703

Lisenziya N: B 114
SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.